Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 76 (8099) ÇƏRŞƏNBƏ, 10 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## 85,1% Milli etimadın birmənalı ünvanı

### Vətəndaşların mütləq əksəriyyəti İlham Əliyevin liderliyindən, fəaliyyətindən və islahatlar kursunun nəticələrindən tam razıdır

**Liderin, yaxud elə hansısa siyasi xadimin fəaliyyətinə etimadın əsas göstəricisi şübhəsiz ki, seçkilərdir. Səsvermədəki rəqəm toplusunun riyazi mahiyyəti isə birmənalı olaraq siyasi ahəngdə, ictimai ovqatda olur. Bu nəticələr həm də fəaliyyətin ya müsbət başlanğıcına, ya da mənfi sonluğuna çevrilir.**

Bununla yanaşı, ictimai rəy sorğuları da dövlət rəhbərlərinin, siyasi xadimlərin fəaliyyətinə xalqın münasibətini öyrənmək baxımından mühüm vasitədir. Seçkilərin 5-7 il aralıq nisbətində keçirildiyini nəzərə aldıqda, sosioloji sorğuların əhəmiyyəti və zərurəti daha da artır.

### Fransa şirkətinin sorğusunda sadə azərbaycanlıların sosial-siyasi baxışları necə əks olunub?

Elə Fransanın "Opinion Way" şirkətinin ötən ay Azərbaycanda keçirdiyi rəy sorğusunun dünən elan edilən nəticələri ölkəmizlə yanaşı, beynəlxalq miqyasda da böyük maraqla qarşılandı. Bu marağın səbəbləri çoxdur. Əvvələ, İlham Əliyevin prezidentliyinin bir ili tamam olur və xalqın etimad göstəricisinin bu müddətdə hansı səviyyədə qalmasını öyrənməyi təbii olaraq, hamı istəyir. Digər tərəfdən ötən 12 ay ərzində Prezident elə genişmiqyaslı islahatlar həyata keçirib ki, bu prosesə ictimaiyyətin münasibətini bilmək də vacibdir. Ümumilikdə isə vətəndaşlarımızın məmləkətin sosial, iqtisadi, siyasi, hərbi sahələrdəki proseslərinə rəyini mütəmadi olaraq öyrənmək və buna müvafiq təhlillər aparmaq da mühüm məqamdır.

Bəs Fransanın tanınmış "Opinion Way" şirkətinin sorğusunda sadə azərbaycanlıların sosial-siyasi baxışları necə əks olunub? Dərin təhlillər elə ilkin təəssüratı tamamlayır: Azərbaycan vətəndaşlarının mütləq əksəriyyəti İlham Əliyevin liderliyindən, fəaliyyətindən və islahatlar kursunun nəticələrindən tam razıdır.

Məsələn, Prezident İlham Əliyevin fəaliyyətini respondentlərin 85,1 faizi müsbət qiymətləndirdiyi halda, sorğunu iştirakçıların cəmi 6,8 faizi "mənfi" cavablandırıb. Yəni İlham Əliyevin siyasi liderliyi alternativsizliyini tam qoruyur.

Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi isə rəyi soruşulanların 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını dəyərləndirib. Dövlət başçısının islahatlar kursuna isə sorğuda iştirak edənlərin 90,5 faizi müsbət münasibət ifadə edib.

Bunlarla yanaşı, respondentlərin 89,9 faizi xarici siyasətə, 75,6 faizi Prezident İlham Əliyevin seçkiqabağı vədlərini yerinə yetirməsinə, 78,8 faizi həyata keçirilən kadr siyasətinə, 75,6 faizi korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən tədbirlərə, 93,1 faizi regionların sosial-iqtisadi inkişaf proqramının icrasına, 90,4 faizi Prezidentin bölgələrə səfərlərinin faydalılıq əmsalına müsbət rəyini bildirib.

### Xalqın ali xidmətçisi

Prezident İlham Əliyevə vətəndaşların 85,1 faizlik etimadı bir fakt olaraq nə qədər coşğu və qürur yaratsa da, ölkə rəhbərinin son 16 illik fəaliyyəti konteksti baxımından bu, təbii qiymətləndirmədir. Qədirbilən millətdən, son 26 il ərzində xaosdan tərəqqiyə keçidin məşəqqətlərini unutmayan vətəndaşlardan başqa münasibət gözləmək də əsla mümkün deyil.

Bəlkə də rəqəmlər üzərində baş sındırmağa, araşdırma aparmağa lüzum da yoxdur. Çünki bunlar hər halda quru statistikadır. Əsas göstərici daha canlıdır - xalqın hər addımbaşı özünü əzəmətlə göstərən inamı, etimadı, səmimiyyətidir. Əsas göstərici bu xalqın qocalı-cavanlı, kişili-qadınlı hər bir zümrəsinin Ali Baş Komandanın əmri ilə Qarabağa doğru yürüşə hazır olmasıdır.

Son iki ayda 3 milyondan artıq vətəndaşın sosial rifahına birbaşa müsbət təsir göstərən addımlar atan Prezident davamlı olaraq sübut etdi ki, hər bir azərbaycanlının Prezidentidir. Şəhid anasının qalxmasına imkan vermədən özü onun yanına gedən İlham Əliyev 10 milyonuncu körpə həmvətənimizi də məhz elə xəstəxana palatasında ziyarət etməklə, "mən xalqın xidmətçisiyəm" məramının şüar olmadığını göstərir. Evi zəlzələdən dağılmış insanların harayına gedərək ağbirçəyin əlini öpən, körpəni bağrına basan Lider 40 gün sonra yeni və daha əzəmətli mənzillərinin açarlarını onlara təqdim edərkən də xalqın inam ünvanına əbəs yerə çevrilmədiyini təsdiq edir. Öz səhvləri ucbatından ticarət mərkəzləri yanan sahibkarlar da məhz İlham Əliyevə pənah apardılar və hər cür yardımı gördülər.

Şəhid ailəsi, məcburi köçkün, müharibə veteranı və əlili, tələbə, təqaüdçü, sahibkar - bir sözlə, milyonlarla azərbaycanlı məhz ən böyük azərbaycanlını öz çətin günündə dayağı kimi qəbul etdi!

Bir sözlə, Prezident fəaliyyət fəlsəfəsinin - "biz yalnız Azərbaycan dövlətinin və xalqının maraqlarına xidmət edirik", "Bizim üçün yeganə istinadgah yalnız xalqdır, onun rifahı, inamı və etimadıdır" amalının dəyişməzliyini son 16 ildə olduğu kimi, ötən bir ildə də hər gün sübut etdi!

*Ötən bir il tarixin ən qüdrətli Azərbaycanının uğur salnaməsinə daha möhtəşəm səhifələr həkk etdirdi.*

*İlham Əliyevin yazdığı, yaratdığı tarixin sabah daha əzəmətli olacağına isə heç kəsin şübhəsi yoxdur. Çünki Liderin arxasında Xalq dayanıb!*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***



## 10 milyonuncu...

### Və Prezident hədiyyəsi, Mehriban xanımın xeyir-duası...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və xanımı uşağın valideynləri ilə söhbət etdilər.

**Rauf Həsənov:** 2019-cu il aprelin 6-da saat 03:30 radələrində dünyaya gəldi.

**Prezident İlham Əliyev:** Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

*Ardı 2-ci səh.*



## Xalq Prezident İlham Əliyevi və onun islahatlarını tam dəstəkləyir

### Fransanın "Opinion Way" şirkətinin apardığı rəy sorğusu bunu bir daha təsdiqləyir

**Azərbaycan xalqının prezident seçkilərinə yüksək əhvali-ruhiyyə ilə getməsindən və yekdilliklə öz iradəsini nümayiş etdirməsindən artıq bir il ötür. Yüksək seçki mədəniyyətinin formalaşdığı Azərbaycanda sonuncu prezident seçkiləri də demokratik, şəffaf və seçicilərin fəallığı şəraitində baş tutdu.**

Həmin gün xalq yenə də müdrikliklə, uzaqgörənliklə seçim etdi. Bundan sonra da "İlhamla irəli"ləməyə qərar verdi. İlham Əliyevi yenidən özünə rəhbər, lider - Prezident seçdi. Azərbaycan heç vaxt indiki kimi güclü olmayıb və bu, bilavasitə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycanın bu gücü onun Prezidentinin və xalqının birliyindədir.

Həmin seçkilər növbəti dəfə nümayiş etdirdi ki, Azərbaycan əhalisinin Prezident İlham Əliyevə etimadı yüksəkdir. Bunu Fransanın "Opinion Way" şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusunun nəticələri də göstərir. Azərbaycan Prezidentinin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə "Opinion Way" şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində geniş rəy sorğusu keçirilib.

Dünən Fransa şirkətinin rəhbəri Brüno Janbarın iştirakı ilə Beynəlxalq Mətbuat Mərkəzində mətbuat konfransı təşkil olunub. Bildirilib ki, sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb.

*Ardı 2-ci səh.*

## Qayğı, səmimiyyət ... Böyüklük

**Azərbaycanın 10 milyonuncu vətəndaşının dünyaya göz açması bütün xalqın sevincinə səbəb oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə körpənin valideynlərini və Azərbaycan xalqını təbrik etdilər. Yenə də birinci olaraq!.. İnsanların həyatındakı həm dar, həm də şad günlərdə həmişə onlarla birlikdə olduqlarını bu sevincli, əlamətdar anlarda da sidqi-ürəkdən, səmimi qəlbdən gələn təbrikləri ilə bir daha təsdiqlədilər.**

Bu təbrikə sakinlərinin sayı 10 milyona çatan Azərbaycan səs verdi. Hərə sevincini bir cür ifadə etdi. Bakıda və respublikanın bölgələrində ağacəkmə kampaniyaları keçirildi, torpağın köksünə sabah qollu-budaqlı ağaclara çevriləcək pöhrələr basdırıldı. Çöhrəsinə təbəssüm qonan insanlar bir-birini təbrik etdi. İstirahət günü paytaxt sakinləri Dənizkənarı Milli Parka axışdı. Bu qeyri-rəsmi bayram münasibətilə incəsənət ustalarının konsertinə tamaşa etdilər, atəşfəşanlığı seyr etdilər.

Körpənin valideynləri - keçmiş Ağdərə rayon sakinləri, hazırda Ağdam rayonunun Baş Güneytəpə kəndində qeydiyyatda olan məcburi köçkünlər Nigar Ocaqova və Rauf Həsənov ailənin ilki olan qıza Mehriban adını verdilər. Bu da Azərbaycan qadınlarının və uşaqlarının böyük himayədarı olan Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyevaya xalqın, insanların sevgi və ehtiramından qaynaqlanan bir hərəkətdir.

*Ardı 2-ci səh.*

## Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2019-cu ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi tamam olur.

Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir.

Müxtəlif konfessiyaların dini liderləri arasında böyük nüfuza malik olan Şeyxülislam Allahşükür Paşazadə bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunmaqla, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına sanballı töhfələr verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsinin təkliflərini nəzərə almaqla, Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

# 10 milyonuncu...



## Və Prezident hədiyyəsi, Mehriban xanımın xeyir-duası...

*Əvvəli 1-ci səh.*

**Rauf Həsənov:** Biz gözləmirdik ki, bizim körpəmiz Azərbaycanın 10 milyonuncu sakini olar.

**Prezident İlham Əliyev:** Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

**Rauf Həsənov:** Mənim xəbərim yox idi. Mətbuat xəbərlərinə girib oxudum, gördüm ki, sağ olun, elə ilk öncə Siz təbrik etmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, bəli.

**Rauf Həsənov:** Çox sağ olun, çox minnətdarıq.

**Birinci xanım Mehriban Əliyeva:** Çox göyçək uşaqdır.

**Prezident İlham Əliyev:** Bu, sizin birinci uşağınızdır?

**Rauf Həsənov:** Bəli, ilk övladımızdır.

**Birinci xanım Mehriban Əliyeva:** İlk uşağınızdır?

**Nigar Ocaqova:** Bəli, ilk uşağımızdır.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah, Allah qorusun.

**Rauf Həsənov:** Elə ilk olaraq Siz təbrik etdiyinizə görə adını da Sizin adınızı qoyduq.

**Nigar Ocaqova:** Siz də xeyir-duasını verin.



**Birinci xanım Mehriban Əliyeva:** Verirəm. Xoşbəxt böyüsün, sağlam böyüsün.

**Prezident İlham Əliyev:** Bu hadisəni bütün xalqımız bayram edir.

**Rauf Həsənov:** Bəli, bütün ölkəmiz bayram edir. Biz də çox sevincliyik, çox sevinirik.

**Nigar Ocaqova:** Biz də şəhərimizin belə gözəl tibb ocaqlarının olmasına sevinirik. Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkürümüzü bildiririk. Sağ olsunlar.

**Prezident İlham Əliyev:** Bu mərkəz çoxdan fəaliyyət göstərirdi. Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər bir yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni indi tibbi xidmət almaq üçün bütün şərait var.

**Birinci xanım Mehriban Əliyeva:** Götürmək olar balacanı?

**Rauf Həsənov və Nigar Ocaqova:** Buyurun.







**Birinci xanım Mehriban Əliyeva:** Maşallah.

**Nigar Ocaqova:** Maşallah gününüz olsun.

**Birinci xanım Mehriban Əliyeva:** Allah qorusun! Xoşbəxt, sağlam, analı-atalı böyüsün!

**Rauf Həsənov:** Çox sağ olun ki, gəldiniz.

**Prezident İlham Əliyev:** Bu, Həsənova Mehriban Rauf qızının sertifikatıdır. Ölkəmizin 10 milyonuncu sakinidir. Bunu sizə təqdim edirəm.

**Rauf Həsənov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bu həmin sertifikatın başqa variantıdır. Sizə dövlət tərəfindən mənzil hədiyyə olunur. Bu da mənzilin çıxarışıdır.

**Rauf Həsənov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Gözəl balanızın hesabına vəsait də köçürülür.

**Rauf Həsənov:** Çox sağ olun. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Xeyirli işlərdə istifadə edin. Bu da hədiyyələrdir.

**Rauf Həsənov:** Çox sağ olun. Sizə minnətdaram.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun. Təbrik edirik.

# Dünya şöhrətli pianoçu Bakıda konsert verib





**Aprelin 8-də Heydər Əliyev Sarayında dünyaca məşhur virtuoz pianoçu, Rusiyanın xalq artisti, UNESCO-nun xoşməramlı səfiri Denis Matsuyev konsert proqramı ilə çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva konsertdə olublar.

Konsertdə Denis Matsuyev L.Bethovenin fortepiano üçün “17 nömrəli Sonata”sını, S.Raxmaninovun fortepiano üçün Korelli mövzusunda variasiyalarını, F.Şopenin “4 nömrəli Ballada”sını, P.Çaykovskinin “Düşüncə”sini, S.Prokofyevin fortepiano üçün “7 nömrəli sonata”sını və digər əsərləri ifa edib.

Denis Matsuyev haqlı olaraq zəmanəmizin ən görkəmli pianoçularından biri hesab edilir. Onun səhnə tərəfdaşları arasında ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Avstriya, Niderland, Macarıstan və digər ölkələrin məşhur simfonik orkestrləri və dirijorları olub. P.Çaykovski adına Böyük Simfonik Orkestri ilə fortepiano konserti Böyük Britaniyanın ən nüfuzlu “Gramophone” jurnalı tərəfindən 2014-cü ilin aprelində “Ayın albomu” adına layiq görülüb.

Qeyd edək ki, Denis Matsuyev 1975-ci ildə Rusiyanın İrkutsk şəhərində musiqiçi ailəsində anadan olub. Valideynləri balaca Denisdə musiqi qabiliyyətini görərək onu fortepiano dərslərinə yazıblar. İrkutskda o, Mayakovski adına 11 nömrəli musiqi məktəbində oxuyub. Pianoçu 1990-cı ildə valideynləri ilə birgə Moskvaya köçərək Moskva Dövlət Konservatoriyasının nəzdində olan musiqi məktəbində təhsilini davam etdirib. 1993-cü ildə D.Matsuyev Moskva Dövlət Konservatoriyasına daxil olub və tanınmış musiqiçilərdən dərs alıb.

D.Matsuyev 23 yaşında olarkən P.Çaykovski adına XI Beynəlxalq müsabiqədə uğurlu çıxışından sonra şöhrət qazanıb. Pianoçu öz yaradıcılığında novatorluq və Rusiya fortepiano məktəbinin ənənələrini birləşdirir. Bu gün Denis Matsuyev dünyanın ən yaxşı konsert zallarının arzuolunan qonağı, ən böyük musiqi festivallarının mühüm iştirakçısı, Rusiyanın, Avropa, Şimali Amerika və Asiya ölkələrinin aparıcı simfonik orkestrlərinin daimi tərəfdaşıdır.

# Qayğı, səmimiyyət ... Böyüklük

*Əvvəli 1-ci səh.*

Dünən isə dövlət başçısı və birinci xanım Respublika Perinatal Mərkəzinə gələrək 10 milyonuncu vətəndaş Mehriban Həsənovanın valideynləri ilə görüşdülər. Xalq-iqtidar birliyinin daha bir parlaq nümunəsi! Bu birliyin heç bir şərhə ehtiyacı olmayan aydın təcəssümü...

Azərbaycanın 10 milyonuncu sakininin anadan olması sıradan bir hadisə deyil. Dünyanın bir çox ölkələrində demoqrafik vəziyyətin gərgin olduğu, bəzi yerlərdə əhalinin sayının hətta azaldığı bir zamanda Azərbaycanda doğumun səviyyəsi yüksək olaraq qalır. Yeni doğulanların sayı dünyasını dəyişənlərin sayını iki dəfədən çox üstələyir. Bu da dövlətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü sosial siyasətin nəticəsində mümkün olub. Dövlətin ailəyə, anaların və uşaqların sağlamlığına göstərdiyi hərtərəfli dəstəyin nəticəsidir.

Azərbaycan dünyaya gələn vətəndaşlarını əliboş qarşılamır. Yəni dövlətimizin sosial siyasəti əhalinin artımına hesablanır. Başqa sözlə, ərzaq bolluğu yaradılır, yeni iş yerləri açılır, məktəblər, uşaq bağçaları, müalicə ocaqları, idman kompleksləri tikilir.

Qoy balaca Mehribanın ata-anasını yurd-yuvasından perik salan düşmən sevinməsin. Müvəqqəti işğal altında olan torpaqlarımızın sakinləri dövlətin qayğısı əhatəsindədir. Həsənovlar ailəsinin artıq Bakı şəhərində mənzili də var!

Əhalisi dəstə-dəstə ölkəni tərk edən Ermənistanı miskin vəziyyətə salan rəhbərləri, vandalları və separatçıları bizə baxıb xar olsunlar. Bilsinlər ki, balaca Mehribanın öz ata-baba yurdunda addım atıb böyüyəcəyi gün də uzaqda deyil!

Dünən Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 10 milyonuncu vətəndaşın valideynlərini şəxsən təbrikə gəlmələri ürəklərdə nə qədər xoş təəssürat, nə qədər xoş arzu və əlbəttə ki, nə qədər böyük inam oyadır!

Bu gəliş qayğı və arxasında Böyüklüyün dayandığı səmimiyyət və alicənablıqdır.

Bu gəlişi Azərbaycanın öz yeni övladına, yeni vətəndaşına xeyir-duası da adlandırmaq olar. Odur ki, bir daha deyirik: Adınla böyü, Mehriban! Daşıdığın ada həmişə layiq ol! Azərbaycan xanımlarına məxsus gözəllik, mehribanlıq, ucalıq daim yaşasın varlığında! Azad, müstəqil Azərbaycanın layiqli vətəndaşı ol!

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Xalq Prezident İlham Əliyevi və onun islahatlarını tam dəstəkləyir

## Fransanın “Opinion Way” şirkətinin apardığı rəy sorğusu bunu bir daha təsdiqləyir

*Əvvəli 1-ci səh.*

Brüno Janbar qeyd edib ki, “Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz” sualına respondentlərin 85,1 faizi bütövlükdə müsbət cavab verib: “Bu sualı onların yalnız 6,8 faizi “mənfi”, 8,1 faizi “bilmirəm” kimi cavablandırıb. “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz” sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib, onlardan 64 faizi bu istiqamətdə hökumətin fəaliyyətini “tam bəyəndiyini”, 26,5 faizi “əsasən bəyəndiyini” vurğulayıb, rəyi soruşulanların yalnız 6,0 faizi bu suala “bəyənmirəm”, 3,5 faizi isə “bilmirəm” cavabını verib”.

Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair “Opinion Way”in sualına respondentlərin bütövlükdə 75,6 faizinin müsbət cavab verdiyini vurğulayan B.Janbar bununla bağlı rəyi soruşulanların yalnız 5,8 faizi verilən vədlərin yerinə yetirilmədiyi, 4,2 faizi isə cavab verməyə çətinlik çəkdiyi qənaətində olduğunu deyib.



Prezident İlham Əliyevin kadr islahatları da sorğuda iştirak edən vətəndaşlar tərəfindən yüksək qiymətləndirilib. Bildirilib ki, bununla bağlı sualları cavablandıran respondentlərin 78,8 faizi həyata keçirilən kadr siyasətinə birbaşa öz müsbət rəyini bildirib, onlardan 43,3 faizi bu sahədəki dəyişikliklərdən tam razı qaldığını, 35,5 faizi isə əsasən razı qaldığını nümayiş etdirib.

“Opinion Way” şirkətinin rəhbəri dedi ki, sorğunun nəticələrinə görə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi korrupsiya əleyhinə mübarizə tədbirləri də cəmiyyət tərəfindən təqdir olunub. Rəyi soruşulanların 75,6 faizi korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən tədbirləri effektli və qənaətbəxş qiymətləndirib. “İlham Əliyevin qəbul etdiyi “Regionların sosial-iqtisadi inkişaf proqramı və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində, sizcə, regionlar inkişaf edibmi” sualına isə respondentlərin 93,1 faizi “hə” cavabını verib, 72,3 faizi hökumətin bu istiqamətdəki fəaliyyətini “tam müsbət”, 20,8 faizi “əsasən müsbət” dəyərləndirib.

Prezident İlham Əliyevin regionların inkişafına xüsusi diqqət göstərməsi həm də vətəndaşların böyük rəğbətini qazanıb. Belə ki, sorğuda Azərbaycan Prezidentinin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4 faizi tərəfindən müsbət dəyərləndirilib, 48,9 faiz bu səfərləri “çox yüksək”, 27,5 faiz “əsasən yüksək”, 14 faiz isə “qismən yüksək” kimi qiymətləndirib.

Həmçinin bildirildi ki, sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri də əhalinin müsbət mövqeyini ifadə edib: “Sorğuda iştirak edənlərin 89,9 faizi bu sualı müsbət cavablandırıb, onların 73,9 faizi suala “əla”, 16,0 faizi “kafi” cavabı verib, 2,4 faizi “pis”, 7,7 faizi isə “dəqiq bilmirəm” kimi münasibət bildirib”.

Beləliklə, göründüyü kimi, “Opinion Way”in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə, onun islahatlar kursuna böyük etimad bəslədiyini bir daha təsdiq edir. Cavablardan görünür ki, əgər prezident seçkiləri yenidən keçirilsəydi, səsvermə məntəqələrinə yollanacaq respondentlərin tam əksəriyyəti, yəni 85 faizi öz səslərini növbəti dəfə hazırkı dövlət başçısı İlham Əliyevə verərdi.

***Elçin CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İndoneziyanın ölkəmizdəki səfiri ilə görüşüb





Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri səfiri yenidən Naxçıvanda görməkdən məmnunluğunu bildirib, ötən il İndoneziya nümayəndə heyətinin “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018” tədbirlərində iştirakına görə təşəkkür edib. Həyata keçirilən səfərlərin əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayan Ali Məclisin Sədri Azərbaycan-İndoneziya əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini və iqtisadi-ticarət əlaqələrinin genişləndiyini bildirib.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu diqqətə çatdırıb, mövcud imkanların təhsil və turizm əlaqələrinin inkişafına zəmin yaratdığını vurğulayıb.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edən Hüsnan Bəy Fanani muxtar respublikada olmaqdan şərəf duyduğunu qeyd edib. Nuhun vətəni Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsini və “Əshabi-Kəhf”in burada yerləşməsini muxtar respublikaya səfər edən İndoneziya nümayəndə heyətində dərin təəssürat yaratdığını deyən qonaq ölkəsində Naxçıvana böyük maraq olduğunu bildirib. Səfir muxtar respublika ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini və əməkdaşlıq üçün hazır olduqlarını diqqətə çatdırıb.

# İlham Əliyevin liderliyi Azərbaycan üçün həmişə uğur vəd edir

## Milli Məclis qanun yaradıcılığı fəaliyyəti ilə Prezidentin islahatlar kursuna mühüm dəstək verir

Aprelin 9-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Əvvəlcə Azərbaycan Respublikası Hesablama Palatasının hesabatı dinlənildi.

### 23,2 milyon manatın bərpası təmin edilib

Palatanın sədri Vüqar Gülməmmədov bildirdi ki, 2018-ci ildə ümumilikdə 58 nəzarət tədbirinin, o cümlədən 53 auditin və 5 təhlilin nəticələrinə dair kollegiya qərarları qəbul edilmiş, 1 tədbir növbəti ilə keçirilmiş və 1 tədbirin nəticələri hesabat dövrünədək yekunlaşdırılmamışdır. Başa çatdırılmış 53 auditdən 3-ü "Dövlət sirri haqqında" qanunun tələblərinə uyğun olaraq hüquq mühafizə orqanlarında məxfi qaydada aparılmışdır.

Audit tədbirləri ilə ümumilikdə 9,2 milyard manat vəsait əhatə olunmuşdur ki, bunun 66,5 faizini dövlət büdcəsinin xərcləri təşkil etmişdir. Ümumilikdə hesabat ilində dövlət büdcəsinin auditlə əhatə olunmuş məbləği 2017-ci illə müqayisədə artsa da, əhatə edilmiş cəmi məbləğ əvvəlki ilin müvafiq göstəricisi ilə müqayisədə 6,8 faiz az olmuşdur. Dövlət büdcəsinin nəzarətlə əhatə olunmuş 6,2 milyard manat məbləğinin təqribən tən yarısını 2017-ci, 21,1 faizini 2018-ci il üzrə xərclər, qalan 28,2 faizini isə 2016-cı ilədək icra edilmiş vəsaitlər təşkil etmişdir.

Vüqar Gülməmmədov dedi ki, normativ hüquqi aktların tələblərinə riayət edilməmə halları 8 istiqamət üzrə təsnifatlaşdırılır. 2018-ci ildə həmin istiqamətlər üzrə ümumilikdə 714 halda nöqsan müəyyən edilmişdir. Qeyd olundu ki, Hesablama Palatası tərəfindən 2018-ci ildə aparılmış fəaliyyətin nəticəsi olaraq yalnız manat ifadəsində dövlət büdcəsinə, qurumların hesabına və Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə ümumilikdə 23,2 milyon manatın bərpası təmin edilmişdir.

Hesabat ilində korrupsiya əleyhinə mübarizə istiqamətində müvafiq qurumlarla sıx əməkdaşlıq davam etdirilmişdir. 2018-ci ildə aparılmış nəzarət tədbirlərindən 9-u üzrə müvafiq məlumatlar aidiyyəti hüquq mühafizə orqanlarına göndərilmişdir. Qeyd edim ki, həmin tədbirlərdən 4-ü inzibati xəta xarakterli, 5-i isə cinayət xarakterli olmuşdur.

Müzakirələr zamanı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə hesabatın əvvəlki illərlə müqayisədə daha təkmil və əhatəli hazırlandığını dedi. Deputatlardan Fəzail Ağamalı, İlham Məmmədov, Fazil Mustafa, Əflatun Amaşov, Vahid Əhmədov, Əli Məsimli, Aydın Hüseynov, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev hesabatla bağlı fikirlərini bildirdilər. Müzakirələrdən sonra keçirilən səsvermədə hesabat nəzərə alındı.

### İlham Əliyevin apardığı uğurlu siyasət dünyada yüksək qiymətləndirilir

Sonra gündəlikdəki digər məsələlərin müzakirəsi başladı. Deputatlar "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" sazişin təsdiq edilməsi barədə qanun layihəsinə müsbət münasibət bildirdilər. Qeyd edək ki, saziş bu il martın 19-da Astanada imzalanıb.

Müzakirələr zamanı deputat Aydın Mirzəzadə diqqəti Prezident İlham Əliyevin ötən birillik fəaliyyətinə yönəltdi. Azərbaycanın bir il keçdiyi inkişaf yolundan söz açan deputat bu dövrdə dövlət büdcəsinin artımının 2.8 milyard dollar olduğunu diqqətə çatdırdı. Aydın Mirzəzadə dedi ki, Azərbaycanda bütün sahələrdə inkişafı görə bilərik. Xarici siyasətlə də bağlı uğurlar göz qarşısındadır: "Avropa Parlamenti, Avropa Birliyinin rəsmiləri Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı öz bəyanatlarını verdilər. Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyi kifayət qədər güclənib. Azərbaycanın prinsipial mövqeyi Ermənistan tərəfindən də qəbul olunur. Onların səylərinə baxmayaraq, danışıqlar Azərbaycan və Ermənistan arasında aparılacaq".

Qeyd olundu ki, bu ildən başlayaraq müxtəlif struktur islahatlarının keçirilməsi, eyni zamanda əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bir-birinin ardınca çox möhtəşəm proqramların qəbul edilməsi cənab Prezidentin dövlət başçısı, lider kimi vəzifəsinin öhdəsindən layiqincə gəldiyini göstərir. "Bu günlərdə Azərbaycanın 10 milyonuncu sakininin anadan olması eyni zamanda ölkəmizin sosial inkişafının, vətəndaşlarımızın öz ölkəsinə bağlılığının göstəricisidir. Cənab Prezidenti təbrik edir, ona uğurlar arzu edir və bildirirəm ki, onun rəhbərliyi Azərbaycan üçün həmişə uğur vəd edir" deyə Aydın Mirzəzadə bildirdi.























Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəinki Azərbaycanın daxilində, Avropada, Amerikada, beynəlxalq təşkilatlarda da yüksək qiymətləndirilir.

### Qanunvericilik təkmilləşdirilir

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Azərbaycan Respublikasının Ailə Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsini müzakirəyə təqdim etdi. Dəyişiklik "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2018-ci il 30 oktyabr tarixli qanunun tətbiqi ilə əlaqədardır. Həmin qanuna əsasən qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyən edən yeni maddə əlavə edilmişdir. Qanun layihəsi qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı məlumat verdi. Bildirdi ki, nəzərdə tutulan dəyişikliklər UEFA Avropa Liqasının final oyununun və 2020-ci il futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir dörddəbir oyunu) ölkəmizdə keçirilməsi ilə əlaqədardır. Bu məqsədlə bəzi gəlirlər vergidən və gömrük rüsumundan azad ediləcək. Hər iki qanun oyunların keçirildiyi müddətdə qüvvədə olacaq. Qanun layihələri qəbul edildi.

"Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov məlumat verdi. Dəyişikliklər fitosanitar nəzarəti və dövlət fitosanitar xidməti sahələrində fəaliyyət göstərən aidiyyəti dövlət orqanlarının səlahiyyət bölgüsünün dəqiqləşdirilməsini və qarşılıqlı əməkdaşlıq əlaqələri ilə bağlı məsələləri nəzərdə tutur. Belə ki, dəyişikliyə əsasən fitosanitar nəzarəti ilə dövlət fitosanitar xidməti fərqləndirilmiş, fitosanitar nəzarəti sahəsində səlahiyyətlər Qida Təhlükəsizliyi Agentliyinə, dövlət fitosanitar xidməti sahəsində səlahiyyətlər isə Kənd Təsərrüfatı Nazirliyinə həvalə olunmuşdur. Qanun layihəsi qəbul edildi.

İclasda Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş), "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də müzakirə olundu.

Dəyişikliklərlə bağlı Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdilər. Dəyişikliklər "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli qanununun icrası ilə əlaqədardır. Qanun layihələri təsdiq olundu.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziya və icazələr haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini müzakirəyə təqdim etdi. Bildirildi ki, dəyişikliklər 12 iyun 2018-ci il tarixində qəbul olunan "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklərə uyğunlaşdırma məqsədi daşıyır.

Milli Məclisin dünənki iclasında son olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Auditor xidməti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Yeyinti məhsulları haqqında", "Notariat haqqında", "Kredit ittifaqları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri də müzakirə edildi.

Qeyd edək ki, qanunlara dəyişikliklərin edilməsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 4 may 2018-ci il tarixli qanunun icrası məqsədilə nəzərdə tutulur.

Komitə sədrləri Əli Hüseynli və Ziyad Səmədzadə layihələrlə bağlı məlumat verdilər. Qanun layihələri təsdiq olundu.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Azərbaycan ilə BMT arasında əməkdaşlıq məsələləri müzakirə olunub



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BMT-nin Cenevrə bölməsinin rəhbəri Mixael Möller ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və BMT arasında əməkdaşlıq, ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərini həyata keçirməsi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi barədə müzakirələr aparılıb.

Hikmət Hacıyev həmsöhbətə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi və ölkəmizin mövqeyi barədə məlumat verib.

# *Hikmət HACIYEV:* "Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindəki təbii resursları riyakarcasına talan edir"

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz siyasəti nəticəsində ölkəmizin işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlər bilavasitə münaqişənin həllini əngəlləyən məsələdir.

Ermənistan atəşkəs rejiminin arxasında gizlənərək riyakarcasına Azərbaycanın işğal olunmuş ərazilərinin təbii resurslarını talan edir, həmçinin demoqrafik vəziyyəti dəyişdirir, Azərbaycanın maddi-mədəni irsinin məhv edilməsi, onun xalqımıza məxsusluğunun izlərinin silinməsi kimi fəaliyyətləri həyata keçirir. Ona görə də beynəlxalq hüququn norma və prinsiplərini nəzərə alaraq Azərbaycan Respublikası işğal olunmuş ərazilərindəki qeyri-qanuni fəaliyyətlər mövzusunu ardıcıl olaraq beynəlxalq tədbirlərdə qaldırır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında BMT-nin Cenevrə Bölməsində "Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlərin insan hüquqlarına təsirləri" mövzusunda beynəlxalq konfransda iştirak edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev konfransın mahiyyətinə toxunaraq qeyd edib ki, tədbirdə işğal olunmuş ərazilərdəki qeyri-qanuni iqtisadi fəaliyyətlər və onların insan hüquqlarına təsiri məsələləri müzakirəyə çıxarıldı. Burada bilavasitə Azərbaycanın işğal olunmuş ərazilərindən didərgin salınmış və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı icmasının bütün fundamental hüquq və azadlıqlarının, eləcə də mülkiyyət hüququnun kobud şəkildə pozulması kimi hallar mövcuddur. Bu da Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərlə birbaşa bağlıdır. Bu konfransda BMT yanında akkreditə olunmuş ölkələrin səfirləri, BMT-nin aidiyyəti ixtisaslaşmış strukturlarının nümayəndələri, beynəlxalq hüquqşünaslar və ekspertlər iştirak edirlər. Buna görə də bu məsələyə, ilk növbədə, beynəlxalq hüquq nöqteyi-nəzərindən yanaşıldı və müzakirələrdə "bugünkü beynəlxalq hüquqda çatışmayan məqamlar varmı və onlar qeyri-qanuni fəaliyyətlərin qarşısının alınmasında nə dərəcədə səmərəlidir?" kimi suallara aydınlıq gətirilməsinə çalışıldı.

Şöbə müdiri qeyd edib ki, konfransda digər münaqişə zonalarında bu sahədə mövcud təcrübələr və baxışlar da müzakirə olundu. Azərbaycan Respublikasının üzləşdiyi problem də bu mövzu əsasında təqdim edildi: "Düşünürük ki, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlər mövzusu bundan sonrakı beynəlxalq tədbirlərdə də davam etdiriləcək. Çox müsbət haldır ki, bu tədbir məhz BMT-nin binasında baş tutur. Azərbaycan Respublikası bu tədbiri təşkil etməklə müasir beynəlxalq hüquqda və beynəlxalq humanitar hüquqda bu mövzunun inkişaf etdirilməsi və beynəlxalq hüquq nöqteyi-nəzərindən məcəlləşdirilməsi istiqamətində addımların atılması prosesinə öz töhfəsini verir. Belə tədbirlər çərçivəsində Azərbaycan da bu kontekstdə öz problemini - işğal olunmuş ərazilərində Ermənistan tərəfindən qeyri-qanuni fəaliyyətlərin həyata keçirilməsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır və bu məsələ ətrafında müzakirələr aparılır.

# Ermənistanın işğal altında olan Azərbaycan ərazilərindəki qeyri-qanuni fəaliyyətləri münaqişənin həllinə xələl gətirir

Aprelin 9-da BMT-nin Cenevrə Bölməsində Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi BMT-nin Sülh Universiteti ilə birgə "Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlərin insan hüquqlarına təsirləri" mövzusunda beynəlxalq konfrans təşkil edib. AZƏRTAC xəbər verir ki, konfransı açan Azərbaycanın daimi nümayəndəsi Vaqif Sadıqov tədbirin məqsədlərini qeyd edərək münaqişə zonalarında qeyri-qanuni fəaliyyətin insan hüquqlarına təsirindən danışıb.

Tədbirin həmtəşkilatçısı olan BMT-nin Sülh üzrə Universitetinin rektoru Fransisko Roxas Aravena çıxış edərək sülh olmadığı halda inkişaf və tərəqqinin də olmayacağını və qeyri-qanuni fəaliyyətlərin artacağını vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxışında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində bu ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyətlərin həyata keçirildiyini, resurslardan qeyri-qanuni istifadə edildiyini və məcburi köçkünlərin mülkiyyət hüquqlarının pozulduğunu qeyd edib. Bu xüsusda, bir sıra praktiki nümunələrə diqqəti çəkərək İsveçrənin tanınmış Frank Müller şirkətinin, eləcə də Airbnb beynəlxalq şirkətinin qanunsuz fəaliyyətlərindən bəhs edib. O qeyd edib ki, Ermənistanın Azərbaycan ərazilərində həyata keçirdiyi qeyri-qanuni fəaliyyətlər münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirir və münaqişənin uzanmasına xidmət edir. Şöbə müdiri, eyni zamanda, Azərbaycanın münaqişə ərazilərində qeyri-qanuni fəaliyyətlər mövzusunun inkişafına və aktuallaşmasına fəal surətdə töhfə verdiyini vurğulayıb. Konfrans İtaliya, İsveçrə, Niderland, Böyük Britaniya və Azərbaycandan müvafiq ekspertlərin iştirakı ilə iki işçi sessiyada keçirilib. Tədbir zamanı, həmçinin Anqola, Azərbaycan, Konqo və Syera-Leonedə sözügedən sahədə mövcud olan vəziyyət bu ölkələrin nümayəndələri tərəfindən diqqətə çatdırılıb.

Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətin və onun insan hüquqlarına təsirlərinin aradan qaldırılması ilə bağlı mövcud beynəlxalq hüquqi çərçivənin müzakirəsinə həsr edilmiş ilk sessiyada çıxış edən məruzəçilər münaqişə zonalarında qeyri-qanuni fəaliyyət göstərən şirkətlərə görə müvafiq dövlətlərin məsuliyyət daşıdığını vurğulayıblar. Çıxışlar zamanı bu sahədə məcburi xarakter daşıyan konkret mexanizmin qəbul edilməsinin zəruriliyi qeyd olunub. Bu sessiyada, həmçinin məruzəçilər tərəfindən Ermənistanın Azərbaycan ərazilərinin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələr, Avropa İnsan Hüquqları Məhkəməsinin "Çiraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarı, işğal olunmuş ərazilərə qeyri-qanuni pul köçürmələri, insanların məskunlaşdırılması və digər məsələlərlə bağlı fikirlər səsləndirilib.




Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlə bağlı üçüncü tərəflərin öhdəliklərinə həsr edilmiş ikinci sessiyada isə məruzəçilər işğal olunmuş ərazilərdə yaradılan qeyri-qanuni rejimlərin tanınmaması ilə bağlı digər ölkələrin məsuliyyətinin olduğunu qeyd ediblər. Bu sessiyada "Azərkosmos" ASC-nin peyk vasitəsilə çəkdiyi, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində işğalçı Ermənistan tərəfindən qeyri-qanuni iqtisadi fəaliyyətin aparılmasını, ətraf mühitə ziyanın vurulmasını, meşələrin yandırılmasını və s. nümayiş etdirən görüntülər təqdim edilib. Bu işçi sessiyada münaqişə zonalarında maddi-mədəni irsin dağıdılması məsələsi də müzakirə olunaraq, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan izinin silinməsi istiqamətində məqsədyönlü şəkildə siyasətin aparıldığı barədə məlumat verilib.

Tədbirdə Cenevrədəki BMT bölməsi yanında akkreditə olunmuş daimi nümayəndəliklər, mövzu üzrə tədqiqat aparan beynəlxalq hüquqşünaslar və qeyri-hökumət təşkilatlarından olan 120-dən çox nümayəndə iştirak edib.

## "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 17-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Maddə 1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205) 8.2.3-cü maddəsində "etməlidir." sözü "etməli;" sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.2.4-cü maddə əlavə edilsin:

"8.2.4. müddətli həqiqi hərbi xidmətə çağırılan Azərbaycan Respublikasının vətəndaşlarının məcburi dövlət daktiloskopik qeydiyyatını aparmalıdır.".

Maddə 2. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767; 2016, № 6, maddə 987; 2018, № 10, maddə 1979, № 11, maddə 2226) 12.1.2-ci və 36.3-cü maddələrində "daktiloskopik" sözü "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom" sözləri ilə əvəz edilsin.

Maddə 3. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225) aşağıdakı məzmunda 11.6-cı maddə əlavə edilsin:

"11.6. Məhkumlar "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom qeydiyyatından keçirilirlər.".

Maddə 4. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963; № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1357-VQD, 1371-VQD, 1377-VQD nömrəli, 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli və 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli qanunları) 156.2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İnzibati qaydada həbs edilmiş şəxslər məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

## "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1641; 2017, № 6, maddə 1098, № 12 (I kitab), maddə 2273; 2018, № 4, maddə 663, № 10, maddə 1987) ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.2.4. birdəfəlik və ya çoxdəfəlik elektron vizanın 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində verilməsini;";

1.2. 6.1.2.1-ci yarımbəndə "7.4-cü" sözlərindən sonra ", 7.4-1-ci" sözləri əlavə edilsin;

1.3. 7.3-1-ci, 7.4-cü, 7.10-cu bəndlərə, 7.17-ci bəndin üçüncü cümləsinə (birinci halda), 7.17-1-ci bəndə, 7.18-1-ci bəndin birinci cümləsinə və 7.24-cü bəndin birinci cümləsinə "elektron" sözündən əvvəl "birdəfəlik" sözü əlavə edilsin;

1.4. 7.4.8-ci yarımbənddə "mobil və stasionar" sözləri "mobil və ya stasionar" sözləri ilə əvəz edilsin;

1.5. 7.4.13-cü yarımbənd ləğv edilsin;

1.6. aşağıdakı məzmunda 7.4-1-ci bənd əlavə edilsin:

"7.4-1. Sistemin istifadəçisi olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs çoxdəfəlik elektron viza alınması ilə bağlı birbaşa müraciət etmək üçün bu Əsasnamənin 7.4-cü bəndində qeyd edilən sənədə və məlumatlara əlavə olaraq aşağıdakılar barədə məlumatı Sistemin internet informasiya ehtiyatında yaradılan müvafiq bölməyə daxil edir:

7.4-1.1. soyadının və ya digər adlarının dəyişdirilməsi;

7.4-1.2. vətəndaşlığının dəyişdirilməsi;

7.4-1.3. viza üçün müraciət etdiyi günədək daimi yaşadığı ölkələr;

7.4-1.4. ailə vəziyyəti;

7.4-1.5. hazırkı iş yeri, vəzifəsi və ixtisası;

7.4-1.6. Azərbaycan Respublikasının ərazisində qalacağı ünvanın telefon nömrəsi (mobil və ya stasionar);

7.4-1.7. əvvəllər Azərbaycan Respublikasına səfər etməsi;

7.4-1.8. əvvəllər Azərbaycan Respublikasına səfər etmək üçün viza alması;

7.4-1.9. əvvəllər Azərbaycan Respublikasına səfər etmək üçün viza verilməsindən imtina edilməsi;

7.4-1.10. cinayət məsuliyyətinə cəlb edilməsi;

7.4-1.11. Azərbaycan Respublikasına dəvət edən tərəfin tam adı, ünvanı və telefon nömrəsi (mobil və ya stasionar);

7.4-1.12. son 3 ildə səfər etdiyi xarici ölkələr.";

1.7. 7-1-ci hissənin adında "Vizanın" sözü "Elektron vizanın" sözləri ilə əvəz edilsin;

1.8. 7-1.0-cı bənddə "vizanı" sözündən əvvəl "birdəfəlik elektron" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu fərmanın 1.6-cı bəndini nəzərə alaraq, bir ay müddətində "Viza blankının doldurulması Qaydası"nın, "Viza almaq üçün ərizə-anket"in nümunəsinin və "Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarında müvafiq dəyişiklik etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

## "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1670) 7.1.1-ci maddəsinə "ümumvətəndaş" sözündən əvvəl "şəxsiyyət vəsiqəsi, habelə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1548-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1548-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

## Ç.A.Abdullayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafı və təbliğində xidmətlərinə görə Çingiz Akif oğlu Abdullayev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

# *BMT təmsilçisi Alessandro Frakasettin:* "Azərbaycan hökuməti məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün çox iş görüb"

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Guido Ambrosonun və BMT-nin İnkişaf Proqramının Rezident nümayəndəsi Alessandro Frakasettinin Füzuli rayonundan başlayan səfərləri aprelin 9-da Ağdam rayonunda davam etmişdir.







Xoşməramlı qonaqlarla Ağdam Rayon İcra Hakimiyyətində görüş olmuşdur. Görüşdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov qonaqlara rayon haqqında ətraflı məlumat vermişdir. Qonaqların nəzərinə çatdırılmışdır ki, Ermənistan silahlı qüvvələri uzun illərdir ki, Ağdam rayonu ərazisinin dörddə üç hissəsini işğal altında saxlayır. Doğma ev-eşiklərindən perik salınan rayon əhalisi öz vətənində məcburi köçkün kimi yaşamağa məhkum edilmiş, böyük bir zaman kəsimini yük vaqonlarında, qarğı-qamışdan quraşdırılmış daxmalarda yaşamalı olmuş, ağır məhrumiyyətlərə dözmüşlər. Hakimiyyətə gəlişi ərəfəsində "Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaqdır" deyə niyyətini açıqlayan Prezident İlham Əliyev verdiyi sözə sadiq çıxaraq məcburi köçkünlərin mənzil şəraitini yaxşılaşdırmaq üçün hər cür infrastruktura malik yeni qəsəbələrin tikintisinə start verdi. İndi təkcə Ağdam rayonu ərazisində yeni tikilən qəsəbələrin sayı 18-ə çatır. Məcburi köçkün kimi respublikanın müxtəlif bölgələrinə səpələnən ağdamlıların böyük əksəriyyəti artıq doğma rayona dönmüşdür. Hazırda rayon ərazisində yaşayan əhalinin sayı 95 min nəfərə yaxındır.

BMT təmsilçilərinin suallarını cavablandıran rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov qonaqlarda cəbhə bölgəsinin hazırkı durumu barədə dolğun təəssürat yaratdı. Qeyd etdi ki, atəşkəs elan edilsə də, erməni silahlı qüvvələri, demək olar ki, hər gün atəşkəs rejimini pozur, təxribatlar törədirlər. Bəzən hədəf mülki əhali, fərdi yaşayış evləri olur. Cəbhə xəttinə yaxın kəndlərdə çoxsaylı yaşayış evləri müharibədən zərər çəkmişdir. Dövlət başçısının davamlı qayğı və diqqəti rayon əhalisindəki yüksək əhvali-ruhiyyənin, qələbəyə olan yenilməz inamın əsas şərtidir.

Rayon icra hakimiyyətindəki səmimi qəbuldan razı qalan BMT təmsilçiləri səfər proqramına uyğun olaraq, cəbhə xəttinə yaxın yaşayış məntəqələrinə baş çəkdilər, yeni qəsəbələrdə yaradılan şəraitlə tanış oldular. Qaradağlı kəndində şəhid anası Qənirə Əmrahova ilə görüşdə maraqlı anlar yaşandı. Azərbaycan qadınının yüksək mənəvi-əxlaqi keyfiyyətlərini yaralı ürəyində qoruyub saxlayan, bu dəyərləri hər zaman uca tutan Qənirə xanım qürurla dedi ki, oğul düşmən çəpəridi: "Mən oğlumun şəhid olmasından daha çox torpaqlarımızın düşmən işğalında qalmasına acıyıram. Mənim kimi şəhid anası olanların hamısının ən böyük təsəllisi Qarabağımızın işğaldan azad olmasıdır. BMT təmsilçilərinin suallarını cavablandıran Qənirə xanımın qətiyyəti, vətənpərvərliyi hər kəsi heyran etdi. Bu şəhid ailəsi üçün rayon icra hakimiyyətinin təşəbbüsü ilə yeni ev tikilir. Qənirə xanım minnətdarlıqla bildirdi ki, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov dəfələrlə onlara baş çəkib. O, məcburi köçkünlərdən qayğı və diqqətini əsirgəmir.

Qonaqlar Yeni İmamqulubəyli qəsəbəsində sakinlərlə də görüşdülər. İnzibati ərazi dairəsi üzrə nümayəndə qəsəbə haqqında qonaqlara ətraflı məlumat verdi. 2014-cü ildə istifadəyə verilən qəsəbə 632 evdən ibarətdir. Qonaqlar qəsəbədə 135 saylı məcburi köçkün tam orta məktəbi ilə tanışlıqdan, burada yaradılan şəraitdən xüsusilə məmnun qaldılar.

BMT-nin İnkişaf Proqramının Rezident nümayəndəsi Alessandro Frakasetti səfər təəssüratları barədə bunları dedi:

- Gördüklərimiz, müşahidələrimiz deməyə əsas verir ki, Azərbaycan hökuməti məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün çox işlər görüb.

Beynəlxalq humanitar təşkilat olaraq bizim məqsədimiz isə əhalinin məşğulluğunu artırmağa, yeni iş yerlərinin açılmasına kömək etmək, bu işdə onlara yardımçı olmaqdır. Füzulidə də, Ağdamda da icra başçıları ilə işgüzar söhbətlərimiz oldu. Onlardan yeni təkliflər gözləyirik.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# ADA Universiteti ilə “Azərenerji” ASC elektrik mühəndisliyi sahəsini birgə inkişaf etdirəcəklər





ADA Universiteti ilə “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti arasında anlaşma memorandumu imzalanıb. Tərəflər elektrik mühəndisliyi sahəsini birgə inkişaf etdirəcəklər.

Memorandumu ADA Universitetinin rektoru Hafiz Paşayev ilə “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev imzalayıblar.

ADA Universitetindən AZƏRTAC-a bildiriblər ki, sənədə əsasən, elektrik mühəndisliyi sahəsində kadr hazırlığının yüksək səviyyədə təşkili və ümumilikdə, bu sahənin potensialını genişləndirmək üçün “Azərenerji” ilə ADA birgə tədbirlər həyata keçirəcəklər.

Memorandumdan əlavə ADA Universitetinin Fondu və “Azərenerji” ASC arasında da sənəd imzalanıb. Sənəd növbəti beş il ərzində 15 tələbənin elektrik və elektronika mühəndisliyi ixtisası üzrə ADA və xarici ölkələrdəki nüfuzlu universitetlərin ikili diplomunu almaq şərti ilə təhsil haqqını maliyyələşdirmək barədədir.

Görüşdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev vurğulayıb ki, ADA-da yeni tədris sahəsi üzrə tələbə təqaüd proqramlarının dəstəklənməsi elektrik mühəndisliyi sahəsində istedadlı tələbələrin üzə çıxarılmasına və onların yetişdirilməsinə yardım edəcək.

“Azərenerji” ASC-nin prezidenti Baba Rzayev isə qeyd edib ki, təhsil ocağı ilə əməkdaşlıq elektrik mühəndisliyi və enerji məsələləri üzrə beynəlxalq təcrübənin daha yaxından təhlilinə və ölkəmizdə tətbiqinə imkan yaradacaq. Eyni zamanda, “Azərenerji” ASC-nin yüksəksəviyyəli gənc kadrlarla tələbatının ödənilməsinə yardımçı olacaq.

Qeyd edək ki, memoranduma əsasən, ADA Universiteti və “Azerenerji” birgə elmi tədqiqat və layihə-konstruktor işlərini də həyata keçirəcək. Səhmdar cəmiyyət öz peşəkar kadrlarının bilik və bacarıqlarını ADA Universitetinin İxtisasartırma Proqramı vasitəsilə genişləndirməklə yanaşı, həm də universitet tələbələrinin kurs, buraxılış işləri və magistrantların dissertasiya mövzuları üzrə mütəxəssis rəyi də verə biləcək.

## Kitab mənəvi qidadır

# Niyə kitab oxumuruq?

## Günahkar kimdir: kitabı satılmayan yazıçı, çap xərcini çıxara bilməyən nəşriyyat, yoxsa tənbəlləşən oxucu?

**...Hər birimizin həyatında uşaqlığımızın xatirəsinə çevrilmiş bir kitab var. Bəlkə yatağımızın baş ucunda anamızın avazla oxuduğu, şəkillərini seyr eləməkdən doymadığımız, “böyüyəndə mən də onun kimi olacam”, - dediyimiz, özümüzü onun qəhrəmanına bənzətdiyimiz bir kitab.**

**Hər birimizin həyatında dünyagörüşümüzü formalaşdıran, həyata baxışımızı, düşüncələrimizi dəyişdirən, həqiqətlərə “gözümüzü açan”, xasiyyətimizə “əl gəzdirməyə” vadar edən bir kitab var. “Bu əsər elə bil mənim həyatımı danışır”, - deyə təəccübləndiyimiz, bizi bizə aynadakı əksimiz kimi göstərən kitab...**





Hər birimizin həyatında təkrar-təkrar oxumaqdan usanmadığımız, hər səhifəsini vərəqləyəndə ilk dəfəki qədər eyni güclü hislər yaşadığımız kitab var. Günlərlə təsirindən çıxa bilmədiyimiz, hansısa sətirlərini beynimizdə həkk edib, öz-özümüzə təkrarladığımız kitab. Bəlkə oxuduqca göz yaşlarımızı saxlaya bilmədiyimiz, “bu kitabı gərək hamı oxusun”, - deyə fikirləşdiyimiz... Yaxud əksinə, “kaş bunu heç oxumazdım”, - dediyimiz...

Hər birimizin həyatında bizə “mən də nə vaxtsa belə bir kitab yazacam” dedirtdirən, yaradıcılığa sövq edən bir kitab var. Bəlkə içimizdəki istedadı üzə çıxaran, qələmimizi kəşf etdirən, həyatın yeni dönəminə istiqamətləndirən... Həyatını dəyişən... Hər birimizin həyatında “o kitabı oxudum, həyatım dəyişdi”, - dediyimiz kitab mütləq olub. Həyatımızın ən unudulmaz kitabı...




Unuda bilməyəcəyimiz bir nəsnə də kitab qoxusudur. Təzə, yonulmuş taxta ilə çap maşının bir-birinə hopmuş spesifik, özünəməxsus qoxusu. Heç bir ətrin əvəz edə bilməyəcəyi, yaddaşımızda əbədilik qazanmış doğma qoxu. O qoxu sanki keçən zamanla birgə axıb gedib. Müasir dövrdə çap olunan kitablardan məhz həmin qoxunu duymaq olmur ki olmur... Yeni və keyfiyyətli çap maşınları bizi o sevimli qoxuya tamarzı qoydu. Və getdikcə kitabdan da uzaqlaşdıq elə bil. Kitabla yadlaşdıq, kompüterlə doğmalaşdıq. Nəticədə kitab oxumayan, oxumaq istəməyən nəsil yetişdi. Bəs bunun günahkarı kimdir? Yazdığının qarşılığı olaraq qonorar qazana bilməyən və kitabı satılmayan yazıçılar, çap xərcini çıxara bilməyən nəşriyyatlar, yoxsa tənbəlləşən oxucular? Məgər Azərbaycanda maraqlı, zövq oxşayan kitablar çap olunmurmu? Çap olunursa, onda niyə oxucu-alıcı qıtlığı var? Problemin həlli istiqamətində nə kimi işlər görmək olar? Mövzunu mütəxəssislərin - naşirlərin müzakirəsinə verdik.

### “Bu gün ölkəmizdə kitab biznesi yoxdur”

“Hədəf nəşrləri”nin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru *Şəmil Sadiq* deyir ki, uzun illərdir cəmiyyətin mütaliə qabiliyyətinin aşağı düşməsi, oxucu sayının az olması ilə bağlı şikayətlər edilir. Bəzən alıcıların sayının az olmasını əhalinin maddi rifahı ilə əlaqələndirirlər. Lakin Ş.Sadiq bu fikirlə razı deyil: “Mən problemi qətiyyən maddiyyatla əlaqələndirməzdim. Sadəcə olaraq, hələ də keçid dövrünün təsirini yaşayırıq. Əmin olun ki, kitab alanların əksəriyyəti daha çox orta və kasıb təbəqənin nümayəndələridir. İmkanı yaxşı olanlar kitabdan uzaq durur sanki. Kitab bir qidadır, ehtiyac hiss edən alır, etməyən yox! Ya da bu qidanın dadını bilənlər alır, bilməyənlər yox! Bununla belə, əlbəttə, ölkəmizdə kitab oxuyan zümrənin sayı qaneedici deyil. Azərbaycan oxucusu, demək olar ki, yoxdur! Bu gün əsas oxucu yazıçıların dost-tanışı, qohum-əqrəbasıdır. Bir naşir olaraq biz populyar nəşrlərə üstünlük vermədiyimizdən ümumilikdə kitabın alış səviyyəsi, yəni əhalinin alıcılıq qabiliyyəti bizi qane etmir. Əgər 10 milyon əhalisi olan ölkədə nəşriyyat bir kitabı 1000 tiraj sata bilirsə, onu “bestseller” hesab edir. Bu isə acınacaqlı durumdur. Bu baxımdan kitabın təbliğinə ciddi ehtiyac var. Son bir neçə ildə paytaxtda kitab mağazalarının sayı artıb, ümid edirəm ki, bu, zamanla oxucu sayının da artımına təsir edəcək”.

Naşirin sözlərinə görə, dünyanın hər bir ölkəsində daha çox detektiv, kriminal, macəra tipli janrlar oxunur. Bu göstərici satılan əsərlərin statistikası ilə müəyyən olunur. Ümumilikdə isə roman janrı bütün janrları üstələyib. Ancaq Şəmil Sadiq nəşriyyat rəhbəri olaraq oxucu zövqündən, tələbindən daha çox əsərin keyfiyyətinə, dəyərinə fikir verdiyini söyləyir: “Bəzən nəşriyyatı yaşatmaq üçün məcbur olub axına qoşulursan. Amma əsas əsərin keyfiyyətidir. Və təəssüf ki, ən populyar əsərlərin belə satışı qənaətbəxş, istənilən səviyyədə deyil. Heç bir nəşriyyat deyə bilməz, biz hansısa kitabdan il ərzində 5000 tiraj satmışıq. Həqiqəti etiraf edək ki, bu gün ölkəmizdə kitab biznesi yoxdur. Çünki gəlirlilik çox aşağıdır. Burada sadəcə fədakarlar çalışır. Mərkəzdən başqa, rayon və kəndlərimizə kitab çatmır, PR işini qurmaq çox çətindir. Digər reklam növləri çox bahadır. Ona görə də başqa vasitələrdən istifadə edilmir. Sosial şəbəkələrdə isə, sadəcə, öz dost-tanışını məlumatlandırırsan. O kütlə də doymuş kütlədir. Kitabın reklamı, təbliğatı üçün televiziya, radiolarda dövlətin tələbi ilə müəyyən sosialyönümlü vaxt ayrılmalı, nəşriyyatlara dəstək olunmalıdır. Bir problem də odur ki, nəşriyyat dərslik və dərs vəsaitlərindən başqa, heç bir bədii əsər üçün müəllifə qonorar verə bilmir. Təəssüf ki, yüzdə 95% yazar öz əsərini özü maliyyələşdirir. Əgər bir nəşriyyat bir yazarın əsərini çap edirsə, bu, bu gün üçün böyük uğur hesab edilir”.

### “Tərcümələrin keyfiyyətsizliyi oxucuları əsəbiləşdirir”

Son illər ölkəmizdə nəşr olunan kitabların dizayn və poliqrafiya işləri yüksək standartlara cavab verir. Azərbaycan nəşriyyat və mətbəələri yüksək texniki göstəricilərə malikdir. Bəs bu göstəricini yaradıcı keyfiyyətə də şamil etmək olarmı?

*Ardı 8-ci səh.*

# “Azercell”in dəstəyi ilə “Onbranch” startapı “Seedstars World” müsabiqəsində iştirak edib

“Azercell Telekom” MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi daha bir beynəlxalq tədbirə qatılıb. 2018-ci ildə ölkəmizdə keçirilən “Seedstars World” müsabiqəsinin qalibi “Onbranch” startapı ilə birlikdə mərkəz “Seedstars Sammiti”ndə iştirak edib.

İsveçrənin Lozanna şəhərində keçirilən tədbirdə 75 ölkədən startap komandaları, hökumət nümayəndələri, investorlar, yaradıcı insanlar, həmçinin tanınmış şirkətlərin mentorları iştirak edib. Maliyyə, səhiyyə, təhsil, kənd təsərrüfatı və enerji sahələrində mövcud olan qlobal problemləri həll etmək məqsədilə keçirilən sammitdə Afrika, Latin Amerikası, Asiya, Şərqi Avropa və Orta Şərqi təmsil edən 64 ən uğurlu startap layihəsi 500,000 ABŞ dolları dəyərində sərmayə yatırımı qazanmaq uğrunda mübarizə aparıb. Nəticədə Argentinanı təmsil edən “Blended” startapı “Seedstars Sammiti”nin qalibi seçilib.

Məlumat üçün bildirək ki, “Seedstars World” regional məsələlərin həllini hədəfləyən, onların regional bizneslərinə və inkişafına dəstək vermək məqsədilə qlobal bazar üçün gəlirli və davamlı məhsullar hazırlayan bacarıqlı startaplar axtarışındadır. Tədbirin keçirilməsində məqsəd inkişaf etməkdə olan ölkələrdə mövcud olan, xüsusilə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun həllər istiqamətində fəaliyyət göstərən sahibkarları üzə çıxarmaqdır.

Qeyd edək ki, informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan startapları dəstəkləyərək onların müstəqil şirkət kimi inkişaf etməsinə kömək edən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi İsveçrənin “Seedstars” şirkəti ilə yaxından tərəfdaşlıq edir və 6 ildir ki, “Seedstars Baku” müsabiqəsinin yerli təşkilatçısıdır.

Fəaliyyətinin 10 illiyini qeyd edəcək Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi “Azercell” və PAŞA Bankın dəstəyi ilə Azərbaycanda sahibkarlıq ekosisteminin inkişaf etdirilməsi istiqamətində bir çox uğurlara imza atıb. Ölkənin ilk biznes inkubatoru olan mərkəz startapların inkişafının hər bir mərhələsində onlarla işləyir, uğur qazanmaq üçün lazım olan vəsaitlər, resurslar və biliklərlə təmin edir.

***“Azərbaycan”***

## *Akademik Nərgiz PAŞAYEVA:*

# “İdrakın ilhamı mənəvi impulslardan güc alır”




M.V.Lomonosov adına Moskva Dövlət Universitetində (MDU) “Universitetlər, cəmiyyət və bəşəriyyətin gələcəyi” mövzusunda beynəlxalq forum keçirilib.

AZƏRTAC xəbər verir ki, 1500-ə yaxın iştirakçı və qonağın - Rusiyanın və xarici ölkələrin aparıcı universitetlərinin rektorlarının və prezidentlərinin, elmi təşkilatların, akademik dairələrin, dövlət orqanları təmsilçilərinin, tanınmış alimlərin və ictimai xadimlərin iştirak etdikləri tədbirdə MDU-nun rektoru, akademik Viktor Antonoviç Sadovniçi, Rusiya Rektorlar İttifaqının vitse-prezidenti, Privoljsk Federal dairəsi ali məktəblər Şurasının sədri, N.İ.Lobaçevski adına Nijni Novqorod Dövlət Universitetinin prezidenti Roman Qriqoryeviç Strongin, Bolqarıstan Elmlər Akademiyasının sabiq sədri, Sofiya Universitetinin rektoru Blaqovest Sendov çıxış ediblər.

M.V.Lomonosov adına MDU-nun Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevanın forumdakı plenar məruzəsi iştirakçılar tərəfindən maraq və rəğbətlə qarşılanıb.

***

“Təhsil məsələləri çoxcəhətlidir, birmənalı deyil. İlk baxışdan belə görünür ki, tədris prosesinin idarə olunmasının bütün reseptləri artıq yaradılmışdır. Belə düşünmək olar ki, hər şey tamamilə aydındır və sadədir - biz bilikləri toplamalı, ötürməli və qiymətləndirməliyik. Bəs, əsas nəticəyə - qazanılan biliklərin insanın şüur və təfəkkürünü zənginləşdirdiyi və maarifləndirdiyi pozitiv dönüş nöqtəsinə necə yetişməli? Axı, sonra məhz şüur aparıcı olacaq və yalnız o, biliyi bu və ya digər yolla aparacaqdır. Başqa sözlə, sadəcə, yalnız konkret mütəxəssis hazırlamaq deyil, mənəvi-əxlaqi prinsiplərə və yüksək məziyyətlərə sahib olmaq üçün insanı necə öyrətməli, necə savadlandırmalı? Bu məsələni tarix kontekstində nəzərdən keçirsək, tarixən ilkin impulsun və bazanın yalnız bilik deyil, həm də səbatlı vicdan, dərrakənin gücü və əxlaqın olduğu proseslərin fərqini aydın görə bilərik.

Sovet dönəmində bizlər - filoloqlar illərlə süni sosrealizm metodologiyasından istifadə etmişik. “Sovet ədəbiyyatının optimizmi” prinsipi nəinki saxta elmi formulu, doktrinanı ehtiva edirdi, həmçinin bir çox hallarda bu ştamp gənc insanın beynini pozur, köhnə düşüncə sistemində yaşayan insanları barışmaz edirdi. O zamanlar fərqli düşünən və fərqli yazan insanların qarşısında hələ çox maneələr dururdu. Çünki təhrif edilmiş nəzəri biliklərin doğurduğu aləm ədəbiyyatşünaslıq dərslikləri ilə məhdudlaşmır, onlarla bitmirdi. Vaxtilə bu qəbildən olan biliklər milyonların şüurunu təhrif etmişdi və heç kimin poza bilmədiyi tarazlığı yalnız ideoloji ehkam, göstəriş və metodologiyalardan real şəkildə azad olan sələf alimlərin həlledici təsiri bərqərar edirdi.

XXI əsrdə bilik və təhsil vasitəsilə kütlələrin şüurunu düzgün idarə edə biləcəyikmi? Heç də sadə olmayan bu sualın cavabı, şübhəsiz, müsbət olmalıdır. Əks halda, biliklər əsas missiyasından - cəmiyyətin ləyaqətini, asayişini, rifahını və inamını təmin etməkdən məhrum olacaqdır. Dünyanın cari durumunda skeptiklər bu ali prinsipləri sadəlövh və səmərəsiz adlandıra bilərlər. Sirr deyil ki, bəzən belə dayaz düşüncələr bütöv bir həmfikirlər ordusu toplaya bilir. Təhsil prosesində ən çətin məsələ müasir tədrisin dağıdıcı, etinasız praqmatizmə və praktisizmə yuvarlanmasına yol verməməkdir. Qəlb, insan təbiəti, şəxsiyyət təhsil sistemində bu çətin prosesin keyfiyyətinə, etibarlılığına və funksionallığına zəmanət verilməsinə təsir edən əsas amillərdir.

İstənilən insan erkən uşaq yaşlarından real həyati olayların və durumların heç də birmənalı olmaması, bəzən isə ağır olması faktı ilə əvvəlcə nəzəri, sonra isə real şəkildə üzləşir. Və bu və ya digər situasiyada fərdin hərəkət və əməllərinin özünütəşkilin və şəxsi intizamın hansı meyarları ilə şərtlənəcəyini heç kim deyə bilməz. İdealda, məhz məktəbdə atılan ilk addımlar, daha sonra isə biliklərin əldə olunmasına aparan yol, ən müsbət keyfiyyətlərə şövqləndirməklə insanı böyük aləmə hazırlamalıdır. Bu mərhələdə yalnız kitablardakı müdrik fikirlər deyil, bu və ya digər biliklərin daşıyıcısı olan insanlarla şəxsi təmas da çox önəmlidir; onların həyat fəlsəfəsi, baxışları, daxili aləmləri və prinsipləri çox önəmlidir; təhsil mühitinin özü və onun atmosferi, biliklərin gücünə inamın ruhu, energetikası önəmlidir.

İnnovasiya əsri olan hazırkı dönəmdə məhz humanitar elmlər, sosial dəyərə malik elmlər qlobal miqyasda böyük əhəmiyyətə malikdir. Dəqiq elmlərin, innovativ layihələrin istənilən nailiyyətləri və ya uğursuzluqları gec-tez humanitar tərkibli və müxtəlif problemlərlə üzləşir, kəsişir. Hətta dahi bir əqlin eyforiyası ali yönümlü qadağanı pozmaq cazibəsi qarşısında duruş gətirmədikdə, humanitar təlimlərin etik, əxlaqi və mənəvi ehkamları, humanitar elmlərin qiymətləndirmə meyarları, dəyər şkalaları əyləc rolunu oynayır.

Bilirik ki, mütləq şəkildə hamı üçün ümumi olan ideyalar mövcud deyil. Bizə o da məlumdur ki, biliklər anadangəlmə olmur, deməli, mənəvi-əxlaqi prinsiplər də anadangəlmə ola bilməz. Yeni dövr fəlsəfəsində sensualizm konsepsiyasının müəllifi, XVII əsr ingilis alimi və mütəfəkkiri Con Lokk yazırdı: “Kimdəsə anadangəlmə ideyalar varsa, həmin şəxsdən onların necə və nə qədər olduğunu öyrənməyə şad olardım”. Yəni onlar anadangəlmə ola bilməz. Çox vaxt çılğın dərketmə, duyma istəyi, biliklərə meyil hissiyyatı təcrübə, sensual qavrama sayəsində meydana çıxır. Aristotelin fikrincə, “ağıl qavramağa başlayanda ideyaları kəsb edir”. Fikrimizcə, qavrayışın, ideyaların və mənəvi-əxlaqi qaydaların ümumiliyi müasir təhsil prosesinin əməli müstəvisində daha fəal və dərin təzahürünü və tətbiqini tələb edən mühüm platformadır. Qlobal baxımdan, ümumbəşəri intellektual mühit, məktəblər və universitetlər, elmi müəssisələr müasir dünyanı bir çox təhdidlərdən qoruyan adekvat və xilasedici buferin qorunub saxlanmasını təmin edən qüvvələrdir, möhkəm bazalardır. İnsanlar kin-küdurətdən, qətllərdən və beynəlxalq intriqalardan beziblər.

Fikrimcə, mənəviyyat yolu ilə saflaşdırılan şüura və ağıla inamın bilik vasitəsilə dəstəklənməsi müasir təhsil və elmin əsas vəzifəsidir. Qlobal aləmdə bir-birimizlə müasir elm və təhsil mühiti vasitəsilə dialoq apara bilib-bilməməyimiz isə özümüzdən asılıdır. Biz istəməzdik ki, gələcək nəsillər humanitar qavramanın və əldə olunan biliklərin mənəvi dərkinin önəmi barədə mücərrəd və dumanlı təsəvvürlərə malik olsunlar. Bəzən kitablarda da səhvlər ola bilər. Müəyyən mərhələdə biliklərin də bu və ya digər dərəcədə yanlış olması mümkündür. İndi bəzən elektron texnikayla davranmağı uşaqlar bizə öyrədir. Lakin mənəvi, yüksələn dəyərlərin ötürülməsi prosesi şəxsiyyəti, gələcək nəsilləri maarifləndirməyi, onlara təhsil verməyi özünə vəzifə seçmiş insanların üzərinə düşməlidir. Xəyali səcdəgaha çıxarılmış bu sakral fikri baş verəcək heç bir yüksək texnoloji inqilab durdura bilməz. Çünki idrakın ilhamı mənəvi impulslardan güc alır. Daha çox mənəvilik, estetik tərbiyə, kreativlik, mücərrəd təfəkkür, təxəyyül, sosial açıqlıqdan keçən ağıl fantaziyaları, həyat sevgisi harmonik şəxsiyyətin formalaşmasına yardımçı ola bilər. O zaman Diogenin gün işığında yandırdığı fənər axtarışda olanı tapacaq.

Bəli, biz bilirik ki, bütün yollar Məbədə doğru getmir, lakin ona doğru aparan, Göy ilə Yer qarşısında bəraət qazanmış Yol bizi buraya - Moskva Dövlət Universitetinə gətirdi!”

***

Xatırladaq ki, bu il fevralın 27-də MDU-nun Bakı filialının rektoru Nərgiz Paşayeva Rusiya Təhsil Akademiyası üzvlərinin ümumi toplantısında M.V.Lomonosov adına MDU-nun rektoru akademik Viktor Sadovniçinin təqdimatı ilə yekdilliklə akademik (əcnəbi üzv) seçilib. 4 il əvvəl - 2015-ci ildə isə yanvarın 26-da MDU-nun 260 illiyinin qeyd olunduğu zaman Nərgiz Paşayevaya universitetin fəxri professoru adı verilmişdi. Nərgiz xanım bu münasibətlə demişdi: “Mən özümü yalnız öz sahəmin mütəxəssisi deyil, müəllim, təhsilə xidmət edən bir insan hiss edirəm. Moskva Dövlət Universitetinin professoru adı qürurla səslənir, çünki qlobal akademik dairələrdə MDU kifayət qədər yüksək yer tutur”.

# Mərkəzi Seçki Komissiyası bəzi dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edib

Məzahir Pənahovun sədrliyi ilə 2019-cu il aprelin 9-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il martın 15-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra Respublikaçı Alternativ (REAL) qanunvericilik təşəbbüsü qrupu tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən bir neçə qanun layihəsi ilə bağlı toplanmış 41500 seçici imzasının yoxlanılması və nəticələri barədə məlumat verilməsinə dair Milli Məclisdən daxil olan müraciətə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra müraciətə əlavə olunan imza vərəqələrindəki imzaların seçki hüququna malik vətəndaşlara məxsus olmasını və düzgünlüyünü yoxlamaq üçün Ədliyyə Nazirliyi və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının ekspert və mütəxəssislərindən ibarət tərkibdə İşçi qrupunun yaradılması və MSK üzvünün İşçi qrupunun əlaqələndiricisi təyin edilməsi qərara alınıb. Qərara əsasən ekspert və mütəxəssislərin ayrılması üçün sözügedən orqanlara müraciət olunması və yoxlamanın nəticələri ilə bağlı İşçi qrupu üzvlərinin rəylərinin, eləcə də onlar əsasında tərtib edilərək əlaqələndirici şəxs tərəfindən imzalanan protokolun Milli Məclisə göndərilməsi nəzərdə tutulur.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 2 saylı Şərur, 38 saylı Nizami ikinci (Gəncə), 40 saylı Kəpəz ikinci (Gəncə), 75 saylı Lənkəran-Masallı və 98 saylı Şəmkir şəhər seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Beynəlxalq təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

**Qərar № 2/5**

## Mərkəzi Seçki Komissiyasının 15 mart 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 15 mart 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.04.2019-cu il*

**Qərar № 2/6**

## Azərbaycan Respublikasının Milli Məclisindən daxil olmuş müraciətə baxılması barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Milli Məclisi 2019-cu il martın 19-da Mərkəzi Seçki Komissiyasına müraciət edərək Respublikaçı Alternativ (REAL) qanunvericilik təşəbbüsü qrupu tərəfindən təqdim edilən bir neçə qanun layihəsi ilə bağlı toplanmış 41 500 seçici imzasının yoxlanılması və nəticələri barədə müvafiq məlumat verilməsini xahiş etmişdir.

Təqdim edilən imza vərəqələrindəki imzaların seçki hüququna malik vətəndaşlara məxsus olmasını və onların düzgünlüyünü yoxlamaq üçün Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri və Daxili İşlər Nazirliyinin mütəxəssisləri daxil edilməklə müvafiq İşçi qrupu yaradılmalı, bu məqsədlə ekspert və mütəxəssislərin ayrılması üçün həmin orqanlara müraciət olunmalı, İşçi qrupu üzvlərinin fəaliyyətinin əlaqələndirilməsi və aparılan yoxlamanın nəticələri ilə bağlı təqdim olunan rəylər əsasında müvafiq protokol tərtib edilərək imzalanması üçün əlaqələndirici şəxs təyin edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Milli Məclisindən daxil olan imza vərəqələrindəki imzaların seçki hüququna malik vətəndaşlara məxsus olmasını və onların düzgünlüyünü yoxlamaq üçün Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri və Daxili İşlər Nazirliyinin mütəxəssislərindən ibarət tərkibdə İşçi qrupu yaradılsın, ekspert və mütəxəssislərin ayrılması üçün həmin orqanlara müraciət olunsun.
2. Mərkəzi Seçki Komissiyasının üzvü Etibar Quliyev İşçi qrupunun əlaqələndiricisi təyin edilsin.
3. Yoxlamanın nəticələri ilə bağlı İşçi qrupu üzvlərinin rəyləri əsasında əlaqələndiricinin tərtib edib imzaladığı protokol həmin rəylərlə birlikdə Milli Məclisə göndərilsin.
4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.04.2019-cu il*

**Qərar № 2/7**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Tahir Turar oğlu Ələkbərov 38 saylı Nizami ikinci (Gəncə), Urfan Səfərəli oğlu Nəsirov 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Kənan Elman oğlu Qəhrəmanov 2 saylı Şərur, Məmmədhüseyn Mühəndis oğlu Cahangirli 75 saylı Lənkəran - Masallı, Həsən Hüseyn oğlu İsmayılov 98 saylı Şəmkir şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.04.2019-cu il*

# AŞ PA-da Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyətlərlə bağlı panel iclası olub



Avropa Şurası Parlament Assambleyasının yaz sessiyası çərçivəsində AŞ-PA-dakı Azərbaycan nümayəndə heyətinin və ölkəmizin AŞ PA yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı panel iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda ölkəmizin ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olması ilə bağlı ətraflı məlumat verilib. Ermənistanın torpaqlarımızı işğal etməsinə dair faktlar təqdim olunub. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonun ermənilər tərəfindən talan edilməsi, həmin ərazilərdə qeyri-qanuni fəaliyyət göstərilməsi pislənilib. İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətin dayandırılması ilə bağlı çağırışlar edilib.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun moderatorluğu ilə keçirilən panel iclasında ölkəmizin İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında daimi nümayəndəsi Çingiz Əsgərov, Beynəlxalq Hüquq İnstitutunun üzvü, İtaliyanın Guido Carli LUİSS Universitetinin beynəlxalq hüquq üzrə professoru Natalino Ronzitti və "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov çıxış ediblər.

Tədbirdə beynəlxalq təşkilatların Azərbaycan torpaqlarının işğal olunması ilə bağlı qəbul etdiyi qətnamə və qərarlardan, beynəlxalq hüququn pozulan norma və prinsiplərindən söz açıblar. Həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işi ilə bağlı qərarından danışılıb.

AŞ PA-nın gələcək sessiyaları çərçivəsində də belə tədbirlərin təşkilinin davam etdiriləcəyi bildirilib.

# BMT-də Azərbaycanın sədrliyi ilə hökumətlərarası ekspert qrupunun sessiyası keçirilib




BMT-də Azərbaycanın sədrliyi ilə Elektron ticarət və rəqəmli iqtisadiyyat üzrə hökumətlərarası ekspert qrupunun sessiyası keçirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən verilən xəbərə görə, aprelin 3-5-də İsveçrənin Cenevrə şəhərində BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) tərəfindən Elektron ticarət və rəqəmsal iqtisadiyyat üzrə hökumətlərarası ekspert qrupunun növbəti iclası keçirilib. Hökumətlərarası ekspert qrupunun əsas məqsədi elektron ticarət və rəqəmli iqtisadiyyatın inkişafından maksimum faydalanmanı təmin etmək, bununla bağlı mövcud çətinliklərin aradan qaldırılması ilə inkişafı gücləndirməkdir.

Yüzdən çox ölkənin təmsil olunduğu ekspert qrupunun iclasında dünya iqtisadiyyatında rəqəmli məlumatların artan rolu, məlumatların təhlili və süni intellekt üzrə imkanların gücləndirilməsi, elektron ticarət və rəqəmli iqtisadiyyatda məlumatların rolu, rəqəmli məlumatlar, onların inklüziv ticarət üçün əhəmiyyəti, sahə üzrə tənzimləyici məsələlər və çətinliklər kimi mövzular müzakirə edilib.

Hökumətlərarası ekspert qrupunun açılış sessiyasına Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun icraçı direktorunun vəzifələrini icra edən Azər Bayramov sədrlik edib. Xatırladaq ki, ötən ilin aprel ayında BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı tərəfindən keçirilən Elektron ticarət və rəqəmsal iqtisadiyyat üzrə hökumətlərarası ekspert qrupunun iclasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi qrupun sədri seçilib.

Tədbirdə çıxış edən BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı təşkilatının baş katibi Muxisa Kituyi hökumətlərarası ekspert qrupunun son bir ildə uğurlu fəaliyyətini qeyd edib və Azərbaycanın elektron ticarətin inkişafı ilə bağlı gördüyü işləri yüksək qiymətləndirib.

Aprelin 1-5-də Cenevrədə, həmçinin Elektron Ticarət Həftəsində "E-ticarət Həftəsi 2019: rəqəmsallaşmadan inkişafa doğru" tədbiri keçirilib. Elektron Ticarət Həftəsində aparılan müzakirələr nəticəsində inkişaf etməkdə olan ölkələrin e-ticarət və rəqəmli iqtisadiyyatdan inkişaf üçün maksimum faydalanmaları məqsədilə konkret imkanlar nəzərdən keçirilib. Müxtəlif əlaqədar tərəflər tədbirdə bir araya gələrək rəqəmsallaşmadan irəli gələn əsas çətinlikləri və imkanları müzakirə ediblər.

# Bu gün inşaatçıların peşə bayramıdır



Artıq 10-cu ildir aprelin 10-u Azərbaycan inşaatçıları öz peşə bayramlarını qeyd edirlər. Tikmək, qurub-yaratmaq gərəkli, xeyirxah işdir. Odur ki, inşaatçılara həmişə və hər yerdə hörmət bəslənir, onların işi, peşəsi yüksək dəyərləndirilir.

Bugünün inşaatçılarının tikdiklərini, qurub-yaratdıqlarını, araya-ərsəyə gətirdiklərini saymaqla qurtarmaz. Son 15 ildə ölkədə 3272 məktəb binası ucaldılıb və təmir olunub, 15 min kilometrdən çox yol inşa edilib. Çoxsaylı sənaye məhəllələri, aqroparklar, istehsal və sosialyönümlü digər müəssisələr istifadəyə verilib. Nəhəng su anbarları tikilib. Müxtəlif təyinatlı geniş infrastruktur yaradılıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və s. bu kimi nəhəng layihələrin gerçəkləşdiyini də əlavə etsək, inşaatçı əməyinin çətinliyini, məsuliyyətini və gərəkliyini bir daha vurğulamış olarıq.

Təqdirəlayiq haldır ki, indi inşaatçı əməyinin bəhrəsi ölkənin təkcə böyük şəhərlərində deyil, ən kiçik qəsəbələrində, ən ucqar kəndlərində də görünür. Təkcə keçən il inşaatçılarımızın tikib istifadəyə verdiyi obyektlərdən bir neçəsinin adını çəkmək kifayətdir. Bunlar Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Sumqayıt Kimya Sənaye Parkında Polipropilen Zavodu və Tütün Məmulatları Fabriki, Mingəçevirdə "Mingəçevir Tekstil"in iplik istehsalı üzrə 2 müəssisəsi, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi və onlarca digər müxtəlif təyinatlı obyektlərdir. Keçən il Abşeron, Balakən, Qobustan, Sabirabad, Şamaxı və Tovuz rayonlarında istifadəyə verilən ümumtəhsil məktəbləri, Bakıda, Naxçıvanda və Naftalanda fəaliyyətə başlayan yeni xəstəxanalar da inşaatçı əməyinin bəhrəsidir. Ötən il eləcə də bir neçə bölgədə "Azərxalça"nın filialları və s. tikilib.

Bir sözlə, Azərbaycanın dinamik sosial-iqtisadi inkişafında, respublikanın regionlarında aparılan böyük tikinti, abadlıq və quruculuq işlərində inşaatçılarımızın əməyi böyükdür.

Peşə bayramınız mübarək, qurub-yaradan insanlar! Əlləriniz var olsun!

# Azərbaycanın ixrac missiyası Riqadadır

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə növbəti ixrac missiyası Riqaya təşkil olunub. İxrac missiyasına şərab və digər spirtli içkilərin, qida və tekstil məhsullarının istehsalı, habelə turizm sahəsində fəaliyyət göstərən 23 Azərbaycan şirkəti daxildir.

Missiyanın ilk günü Azərbaycan və Latviya şirkətləri arasında keçirilən işgüzar görüşdə hər iki tərəfdən 100-dək sahibkar iştirak edib. Görüşdə "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində görülən işlər barədə məlumat verilib, Azərbaycan məhsullarının Latviyaya ixracının genişləndirilməsi müzakirə edilib.

Səfərin ikinci günü - aprelin 8-də "Made in Azerbaijan" brendi ilə istehsal olunan Azərbaycan şərablarının dequstasiyası keçirilib. İştirakçılara Azərbaycanın müxtəlif bölgələrində istehsal olunan məhsul nümunələri təqdim olunub.

Aprelin 10-dək davam edəcək ixrac missiyası çərçivəsində Azərbaycanın Latviyadakı Ticarət Evində görüşlər keçiriləcək, ticarət şəbəkələrinə səfərlər təşkil olunacaq.

# Vergi Məcəlləsinə edilən dəyişikliklərin əksəriyyəti gizli iqtisadiyyatın aradan qaldırılmasına xidmət edir

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzinin yaydığı xəbərdə bildirilir ki, cari il üzrə vergi xidmətinin əsas prioritetləri dəyişməz qalır. Bu, ilk növbədə, gizli iqtisadiyyatın aradan qaldırılması istiqamətində görüləcək işlərdir.

Nazirlik gizli iqtisadiyyatın və vergidən yayınmanın miqyasının azaldılması, gəlirlərin leqallaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirir. Buraya, ilk növbədə, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər və vergi-gömrük əlaqələndirilməsi yolu ilə uçotun izlənilməsi imkanlarının bərqərar olması - vahid risk platformasının yaradılması daxildir.

Vergi Məcəlləsinin 300-dən çox maddəsinə dəyişiklik edilib ki, bunların böyük əksəriyyəti gizli iqtisadiyyatın aradan qaldırılmasına yönəldilib. Buraya, ilk növbədə, özəl sektorda çalışan işçilərin əməkhaqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması, əmək müqaviləsi bağlamadan işçilərin işə cəlb olunmasına görə işəgötürənə tətbiq edilən maliyyə sanksiyalarının artırılması, malların sənədsiz dövriyyəsinə, o cümlədən malların sənəd təqdim edilmədən satılmasına və alınmasına, habelə xərclərin sənədlərlə rəsmiləşdirilməməsinə və vergidən azad olunan gəlirlərin sənədləşdirilməməsinə və bəyan edilməməsinə görə maliyyə sanksiyalarının tətbiqi, dövlət orqanları ilə aparılan elektron məlumat mübadiləsinin genişləndirilməsi daxildir.

Bundan başqa, səyyar vergi yoxlamalarının sayının kəskin azaldılması, biznes əməliyyatlarının elektron qaimə-faktura ilə rəsmiləşdirilməsi, aksizli məhsullar üzərində nəzarət tədbirlərinin gücləndirilməsi, iri biznes subyektləri ilə müntəzəm görüşlərin keçirilməsi mühüm addımlar hesab edilə bilər.

2018-ci ildə gizli iqtisadiyyatın miqyasının azaldılması vergi xidmətinin başlıca istiqaməti olub. Bəzi sektorlarda, xüsusilə aksizli malların istehsalı və satışı, tibbi xidmətlər sektoru, şəbəkə ticarəti kimi sahələrdə nəzarət tədbirləri gücləndirilib. Vergi orqanlarının keçən il iri topdansatış müəssisələrində apardığı vergi nəzarəti tədbirləri zamanı 930 milyon manat, şəbəkə marketləri üzrə 122 milyon manat, özəl tibb xidmətləri sahəsində 230 milyon manatdan çox dövriyyənin gizlədildiyi aşkar olunub. Bu rəqəmlər yalnız vergi orqanlarının nəzarət tədbirlərinə cəlb olunmuş bəzi sektorlardakı vergiödəyicilərini əhatə edir. Bu, milyonlarla manat verginin və sosial ödəmələrin büdcədən yayındırılması deməkdir.

Gizli iqtisadiyyatın vergi gəlirlərini azaltması və sosial müdafiə sisteminin maliyyələşməsini zəiflətməsi kimi mənfi makroiqtisadi təsirlərlə yanaşı, şirkətlər arasında ədalətli rəqabəti aradan qaldıran mikroiqtisadi təsirlər də mövcuddur. Sahibkarların böyük əksəriyyəti ədalətli, rəqabətli bir mühitdə çalışmaq niyyətindədir. Məhz bu səbəbdən, vergi qanunvericiliyinə edilmiş son dəyişikliklərdə aparılan islahatlara etimadı artırmaq üçün bu dəyişikliklər uzunmüddətli güzəştlər sistemi ilə möhkəmləndirilib.

Vergilər Nazirliyi biznes münasibətlərinin digər tərəfi olan vətəndaşları da bu prosesə cəlb etmək niyyətindədir. Yalnız inzibati mexanizmlə yüksək nəticəyə nail olmaq mümkün deyil, mütləq təşviq mexanizmi də formalaşdırılmalıdır. Başqa sözlə, nağdsız və nağd alış-verişdə ƏDV-nin geri qaytarılması yolu ilə vətəndaşı bu prosesə qoşaraq ümumi biznesin leqallaşdırılmasına nail olmaq mümkündür.

Həmçinin elektron ödəmələrin geniş tətbiqi gizli iqtisadiyyatın miqyasını azaltmağa kömək etməklə, onun qarşısını alan ən mühüm amildir. Elektron ödəmələrin çoxluq təşkil etdiyi Böyük Britaniya və Qərbi Avropa ölkələrində gizli iqtisadiyyatı çox cüzidir. Araşdırmalara görə, ardıcıl 4 il müddətində elektron ödəmələrin həcminin illik 10 faiz artırılması gizli iqtisadiyyatın həcmini 5 faiz aşağı salır. İsveç kimi bir ölkədə restoranlar artıq nağd ödəniş qəbul etmir.

Azərbaycanda gizli iqtisadiyyatın səviyyəsi haqqında beynəlxalq təşkilatlar və yerli müstəqil ekspertlər tərəfindən müxtəlif fikirlər səsləndirilir və onun həcminin azaldılması tövsiyə olunur. Ölkəmizdə son illərdə aparılan köklü islahatlar nəticəsində gizli iqtisadiyyatın həcmi getdikcə azalsa da, onun mövcud miqyası hələ də arzuolunan səviyyədə deyil. Vergilər Nazirliyi gizli iqtisadiyyatın aradan qaldırılması istiqamətində tədbirləri bundan sonra davam etdirəcək.

# Abşeron Logistika Mərkəzi İstanbul-Bakı marşrutu ilə ilk blok qatarı qəbul edib

İlk dəfə olaraq İstanbuldan Bakıya yola düşən beynəlxalq yük qatarı aprelin 5-də Bakıya çatıb. Qatar Abşeron Logistika Mərkəzində qarşılanıb.

Qarşılama mərasimində açılış sözü ilə Abşeron Logistika Mərkəzinin baş direktoru Ziya Ağayev çıxış edib. Z.Ağayev bildirib ki, təyinat nöqtəsi Abşeron Logistika Mərkəzi olan yükün daşınması Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzərindən Azərbaycan, Türkiyə və Gürcüstan dəmir yollarının dəstəyi ilə Abşeron Logistika Mərkəzi tərəfindən həyata keçirilib. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur.

"Şərq-Qərb nəqliyyat dəhlizi" çərçivəsində baş tutan bu yük daşıması ölkə iqtisadiyyatı üçün də çox böyük əhəmiyyət kəsb edir. Ölkə başçısının rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, ölkəmizin tranzit imkanlarının genişləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirilib. Nəqliyyat sahəsinin inkişafı istiqamətində aparılan məqsədyönlü islahatlar nəticəsində ölkəmiz beynəlxalq yükdaşımalarda regional qovşağa çevrilib.

Belə ki, Azərbaycanın çox əlverişli coğrafi mövqedə yerləşməsi tranzit potensialının artırılması istiqamətində əvəzsiz rol oynayır, bununla da büdcə gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına zəmin yaradır.

Abşeron Logistika Mərkəzi tarixi İpək yolunun üzərində, ölkəmizin paytaxtı Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsində yerləşir. Mərkəzin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azalmasını təmin edir.

Terminal vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.

Burada müştərilərə müasir və yüksək səviyyəli xidmətin göstərilməsi "bir pəncərə" sistemi ilə bir nöqtədən təmin olunur.

Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnikalar xidmət göstərir.






# DÜNYA






# Brexit müəmmaya dönüb

## Britaniya Aİ-dən çıxmaq vaxtını yenidən təxirə salmağa çalışır

Srağagün axşam Böyük Britaniya parlamentinin aşağı palatası - İcmalar Palatası Birləşmiş Krallığın Avropa İttifaqından (Aİ) çıxmasının (Brexit) təxirə salınması haqqında qanun qəbul etmişdir. Bundan əvvəl parlamentin yuxarı palatası - Lordlar Palatası qanun layihəsinə düzəlişlər etdikdən sonra aşağı palata sənədə yenidən baxmış və qəti qərara gəlmişdir.




Qanun layihəsinin müəllifi, leyborist deputat İvett Kuper qeyd etmişdir ki, parlamentin hər iki palatası işə məsuliyyətlə yanaşmış və belə bir mövqe nümayiş etdirmişdir ki, sazişsiz Brexit Britaniyada iş yerlərinə, istehsal və təhlükəsizliyə ağır zərbə vurar. Parlamentar əlavə etmişdir ki, qəbul olunmuş qanun Baş nazir Tereza Mey hökumətinin cari həftə ərzində Brexit üzrə sazişin parlamentdən keçməsinə kömək edəcək.

Məlum olduğu kimi, Londonla Brüssel arasında son razılaşmaya görə, Britaniya aprelin 12-də Aİ-dən çıxmalıdır. Bu dəfə isə Tereza Mey hökuməti Brexitin iyunun 30-dək təxirə salınmasına nail olmaq niyyətindədir. Özü də Baş nazir parlamentin sözügedən qanunun meydana çıxmasını gözləmədən ötən həftənin cümə günü Aİ Şurasının sədri Donald Tuska məktubla müraciət edərək Birləşmiş Krallığın Aİ-dən çıxmasını iyunun 30-dək təxirə salmağı xahiş etmişdir. Tuskun bu xahişə necə cavab verəcəyi hələ məlum deyil. Bununla belə, əldə olan məlumata görə, Aİ "boşanma"nı yalnız uzun müddətə - gələn il martın axırınadək təxirə salmaq variantına razıdır.

Aİ liderlərinin Brexit üzrə təcili sammiti bu günə planlaşdırılmışdır. Brüssel Britaniyanın Aİ-dən çıxmasının yeni tarixini təsdiqləməsə, Birləşmiş Krallıq aprelin 12-də Aİ-ni sazişsiz tərk etmək məcburiyyətində qalacaq.

Xatırlatmaq yerinə düşər ki, Britaniya parlamenti Brexit prosesi başlayandan bəri ölkənin Aİ-dən çıxması variantlarını yalnız rədd etməklə məşğul olmuşdur. "Boşanma"nın səkkiz variantı, o cümlədən Aİ ilə hər hansı saziş variantı üzrə referendumun keçirilməsi, sazişsiz Brexit, Aİ-dən çıxmaqdan imtina və dəqiqləşdirici razılaşmalarla sazişsiz Brexit təqdim olunmuşdu. Amma bütün bu variantlar İcmalar Palatasından keçə bilməmiş, nəticədə həm Londonu, həm də Brüsseli narahat edən qeyri-müəyyənlik şəraiti yaranmışdır.

Brexit prosesinin ən qəribə tərəfi odur ki, britaniyalı parlamentarlar Brüssellə razılaşdırılmış ayrılma sazişinin bu və ya digər müddəalarını yalnız tənqid etməklə kifayətlənir, çıxış yolu göstərməyə tələsmirdilər. İndisə belə bir vəziyyət yaranmışdır ki, Brexit prosesi Birləşmiş Krallıq Aİ-dən çıxarılanadək dalanda qalacaq və İcmalar Palatasının şıltaqlığından bezən Brüssel Londona sadəcə olaraq qapını göstərəcək. Başqa sözlə, Britaniya-Aİ "nikah"ı sövdələşmə əldə edilmədən pozulacaq.

Yeri gəlmişkən, Aİ dövlətləri sazişsiz Brexit variantına hazırlaşır, çünki Londonla ortaq məxrəcə gəlməyin mümkün olacağına ümid qalmamışdır. Ona görə də Aİ liderləri belə bir vəziyyətdən daha az zərərlə çıxmaq barədə düşünürlər.

Brüsselin belə bir mövqeyi əsassız deyil. Britaniya parlamenti Brexitin şərtlərini Londonun xeyrinə dəyişdirməyi tələb edir, xüsusilə keçid dövründə İrlandiya Respublikası ilə Birləşmiş Krallığın bir hissəsi olan Şimali İrlandiya arasında sərhədin şəffaf qalmasına müsbət yanaşmır. Lakin Aİ rəhbərliyi Londonla razılaşdırılmış Brexit şərtlərinə yenidən baxmaq niyyətində deyil, çünki belə olan halda Britaniya hökuməti ilə uzun-uzadı yeni danışıqlar aparmaq lazım gələcək. Lakin indidən aydındır ki, yeni danışıqların məqsədi hansısa anlaşılmaz məsələni tənzimləmək yox, Londonun Brüsseldən əlavə güzəştlər qoparmaq cəhdidir. Amma çətin ki, Aİ liderləri əldə olunmuş kompromis əvəzinə hansısa şantaja boyun əysinlər. Özü də Brexitin təkrar-təkrar təxirə salınması əvvəllər tərəflərə nə verib ki, bundan sonra da nəsə versin?

Digər tətəfdən, Aİ Brexitin yenidən təxirə salınmasını qəbul etmir, məsələnin həllinə tezliklə nail olmağı üstün tutur. Bu il mayın 23-26-da Avropa Parlamentinə (AP) seçkilər keçiriləcək. Britaniya mayın 23-dək Aİ-dən çıxmasa, AP-a seçkilərdə iştirak etmək məcburiyyətində qalacaq. Axı Aİ-ni tərk edən bir ölkənin Birliyin qanunvericilik orqanında əvvəlcə təmsil olunması, sonra da çıxması Brüsselin nəyinə lazımdır?

Belə bir məqam da diqqətdən qaçmır ki, London Brexit proseduru başlayandan bəri itirməkdə davam edir. ABŞ-ın "Goldman Sachs" bankının londonlu mütəxəssisləri bildirmişlər ki, Britaniyanın Aİ-dən çıxacağı üzündən ölkə iqtisadiyyatının aprelin 1-dək itkisi 87 milyard funt sterlinq (114 milyard ABŞ dollarından çox) olmuşdur. Bankın hesablamalarına görə, 2016-cı ilin iyununda keçirilmiş Brexit referendumundan bəri ölkə hər həftə 600 milyon funt sterlinq (təxminən 787 milyon dollar) itirirdi. Birləşmiş Krallıq indiyədək öz ÜDM-nin 2,5 faizindən məhrum olmuşdur. Qeyri-müəyyənliklə bağlı risklər referendumdan dərhal sonra investisiya qoyuluşunun həcminə mənfi təsir göstərmişdir.

Bank Britaniyanın Aİ-dən çıxmaması ehtimalını da nəzərdən keçirmişdir. Bu variantın reallaşacağı təqdirdə "Goldman Sachs"ın ekspertləri hesab edirlər ki, Britaniya iqtisadiyyatı sürətlə möhkəmlənməyə başlayacaq, son illər itirdiklərini geri qaytaracaq, funtun məzənnəsi təqribən 10 faiz artacaq. Britaniya parlamentinin rədd etdiyi sazişsiz Brexit ssenarisinə gəlincə, o, ölkə ÜDM-nin əlavə olaraq 5,5 faiz itirməsinə və funtun məzənnəsinin 17 faiz aşağı düşməsinə gətirib çıxara bilər.

*Allahverdi MEHDİYEV,*
*"Azərbaycan"*

## Əmək miqrantları rekord məbləğdə pul köçürüblər

Ötən il miqrantlar aşağı və orta gəlir səviyyəsi olan ölkələrə rəsmən 529 milyard dollar köçürmüşlər. Bu, 2017-ci ildəkindən (483 milyard dollar) 9,6 faiz çoxdur. Məlumatı Dünya Bankı açıqlamışdır.



Bank bunu ABŞ-da məşğulluq sahəsində vəziyyətin yaxşılaşması, habelə Rusiya və Körfəz Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən köçürmələrin həcminin bərpa olunması ilə izah etmişdir. Miqrantlar Polşa, Rusiya, İspaniya və ABŞ-dan daha çox pul köçürmüşlər.

Dünya Bankı bildirir ki, Rusiyada iqtisadi fəallığın bərpasından Qırğızıstan, Tacikistan və Özbəkistan faydalanmışdır. Ukrayna regionda miqrantlardan əsas pul alıcısıdır: 2018-ci ildə ölkəyə 14 milyard dollardan çox pul daxil olmuşdur. Bu, 2017-ci illə müqayisədə 19 faiz çoxdur.

Yüksək gəlir səviyyəsinə malik ölkələr daxil olmaqla bütün dünyada miqrantlar ötən il 689 milyard dollar, 2017-ci ildə isə 633 milyard dollar köçürmüşlər.

2018-ci ildə əmək miqrantlarından əsas pul alıcıları Hindistan, Çin, Meksika, Filippin və Misir olmuşdur.

## ABŞ Avropa mallarına əlavə rüsum tətbiq edə bilər

ABŞ-ın ticarət danışıqlarında nümayəndəsi Robert Laythayzerin ofisi əlavə rüsumlar tətbiq oluna biləcək Avropa İttifaqı mallarının və ərzaqlarının siyahısını dərc etmişdir. 14 səhifəlik siyahıya helikopterlər, təyyarələr və onların ehtiyat hissələri, qida məhsulları (pendir, cem, peçenye, dəniz məhsulları), şirələr, alkoqolsuz pivə, şərab, xalça və bir çox digər mallar və ərzaqlar daxildir. Məhdudiyyətlər Fransa, Almaniya, İspaniya və Böyük Britaniyadan daxil olan mallara şamil edilə bilər. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.




Vaşinqton bu addımla Aİ və onun dörd dövləti - Almaniya, Fransa, İspaniya və Böyük Britaniya tərəfindən Amerikanın "Boeing" korporasiyasının Avropadakı rəqibinin - "Airbus" konserninin subsidiyalaşdırılmasına cavab verməyə hazırlaşır.

ABŞ hökumətinin hesablamalarına görə, avropalıların bu hərəkəti ucbatından ölkə iqtisadiyyatı hər il 11 milyard dollar itirir. Hazırda Dünya Ticarət Təşkilatı (DTT) Vaşinqtonun rüsumla bağlı sorğusunu araşdırır.

"Boeing"in ABŞ-dan və "Airbus"un Aİ-dən aldığı subsidiyaların qanuniliyi ilə bağlı şikayətlər eyni gündə - 2004-cü il oktyabrın 6-da DTT-yə göndərilmişdir. O vaxtdan bəri ABŞ və Aİ öz təyyarəqayıranlarına qanunsuz subsidiya verməkdə bir-birini ittiham edir.

Ötən ilin may ayında DTT Aİ-nin "Airbus"a subsidiyalarını "Boeing"in maraqlarına ziyan vurmaq kimi qiymətləndirmişdir. ABŞ dərhal Aİ-ni cərimə tədbirləri ilə hədələmişdir. Ötən ay DTT Aİ-nin tərəfinə keçərək bildirmişdir ki, ABŞ "Boeing"ə qanunsuz maliyyə dəstəyi göstərmişdir.

## Qətər xarici bankları məhkəməyə verdi

Qətər Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Lüksemburq banklarına qarşı iddia qaldıraraq Nyu York və London məhkəmələrinə müraciət etmişdir. Rəsmi Doha "Samba Bank" (Səudiyyə Ərəbistanı), "First Abu Dhabi Bank" (BƏƏ) və "Havilland Bank"ı (Lüksemburq) Qətər rialının məzənnəsini aşağı salmaq məqsədilə beynəlxalq bazarda manipulyasiya etməkdə günahlandırmışdır.



Qətər hökumətinin məlumatına görə, Nyu Yorkda keçirilmiş valyuta hərracında "Havilland Bank" Qətər rialı ilə saxta sövdələşmələr həyata keçirmişdir. Beləliklə, qətərli investorlar və ölkənin xarici aktivləri haqqında mənfi rəy formalaşmışdır.

Səudiyyə Ərəbistanı və BƏƏ banklarının nədə ittiham olunması barədə məlumat verilmir.

Xatırladaq ki, 2017-ci il iyunun 5-də Bəhreyn, BƏƏ, Səudiyyə Ərəbistanı, Misir, Yəmən, Liviyanın müvəqqəti hökuməti, Maldiv Respublikası və Mavrikiya Respublikası Doha ilə diplomatik münasibətləri kəsmişlər. İddiaya görə, Qətər terrorizm və ekstremizm ideologiyasını dəstəkləyir, düşmənçilik siyasəti yürüdür və ərəb dövlətlərinin daxili işlərinə qarışır.

Sonradan bu ölkələrə Mavritaniya və Komor adaları da qoşulmuş, İordaniya və Cibuti isə diplomatik təmsilçiliyin səviyyəsini aşağı salmışdır.

Bir müddətdən sonra Səudiyyə Ərəbistanı, BƏƏ, Misir və Bəhreyn sanksiyaların aradan qaldırılması üçün on gün müddətində icra edilməsi labüd olan 13 tələbdən ibarət siyahını Dohaya ünvanlamışlar. Sonradan bu müddət daha 48 saat uzadılmışdır.

Qətər bu tələbləri rədd etmişdir.

Həmin il avqustun 13-də Səudiyyə Ərəbistanı Qətərə qarşı məhdudiyyətləri zəiflətmişdir. Ər-Riyad Səudiyyə Ərəbistanı vətəndaşları və şirkətlərindən Qətərdəki fəaliyyətlərini dərhal dayandırmaq tələbindən imtina etmişdir.

Bundan əlavə, Səudiyyə tərəfi tələbələrin giriş-çıxışı üçün icazə verilməsini bərpa etmişdir.

## Vaşinqton Qaşıqçının qətlində əli olanlara qarşı sanksiyalar tətbiq etdi

Jurnalist Camal Qaşıqçının vəhşicəsinə qətlə yetirilməsindən altı ay sonra ABŞ-ın dövlət katibi Mayk Pompeo Səudiyyə Ərəbistanının bu cinayətdə əli olan 16 vətəndaşına qarşı sanksiyaların tətbiq olunduğunu elan etmişdir. Pompeonun dediyinə görə, həmin şəxslərin ABŞ-a girişi qadağan olunmuşdur.

Sanksiya siyahısına Səudiyyə Ərəbistanı vəliəhdi Məhəmməd bin Salmanın sabiq müşaviri Səud Qəhtani, Mahir Mutrəb, Salah Tubeyqi, Məşəl Bostani, Naif Arifi, Məhəmməd Zəhrani, Mənsur Əbu Hüseyn, Xalid Üteybi, Əbdüləziz Həsavi, Vəlid Şəhri, Zəar Hərbi, Fəhd Bələvi, Bədr Üteybi, Mustafa Mədəni, Seyf Qəhtani və Turki Şəhrinin adları daxil edilmişdir.

Dövlət Departamentindən bildirmişlər ki, bu qərar ABŞ qanunvericiliyinə uyğun olaraq qəbul edilmişdir. Qanunvericilik insan hüquqlarını kobud şəkildə pozan və korrupsiya ilə məşğul olan əcnəbi vətəndaşlara qarşı sanksiyaların tətbiqini nəzərdə tutur.




Səudiyyə Ərəbistanının İstanbuldakı baş konsulu Məhəmməd Katibinin adı Dövlət Departamentinin sanksiya siyahısına düşməyib. Eyni zamanda Katibi ötən ilin noyabrında ABŞ Maliyyə Nazirliyinin tətbiq etdiyi sanksiyalarda yer alır.

ABŞ-ın "The Washington Post" qəzeti ilə fəal əməkdaşlıq etmiş tanınmış səudiyyəli jurnalist Camal Qaşıqçı ötən il oktyabrın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı baş konsulluğunun binasında öldürülmüşdür. Türkiyə prokurorluğu keçirdiyi təhqiqatın yekunlarına görə belə bir qərara gəlmişdir ki, jurnalist əvvəlcədən planlaşdırılmış cinayətin qurbanı olmuşdur. Qaşıqçı diplomatik missiyanın binasına daxil olan kimi onu boğmuşlar. Qətldən sonra jurnalistin cəsədi doğranaraq məhv edilmişdir.

Türkiyə Qaşıqçı işi üzrə İstanbulda məhkəmə prosesinin təşkil olunmasını istəyir və Ər-Riyadı jurnalistin qətlində əli olan şəxsləri təhvil verməyə çağırır.

# ABŞ və İrandan bir-birinə terrorizm ittihamı



ABŞ Prezidenti Donald Tramp İran İslam İnqilabı Qvardiyasının xarici terrorçu təşkilatlar siyahısına daxil edilməsi barədə qərar qəbul etmişdir. Bu barədə Ağ evin mətbuat xidməti məlumat vermişdir.



Qeyd olunur ki, bu addım İran hökumətinə təzyiqi gücləndirmək məqsədilə atılmışdır.

"Digər ölkələri də İran İslam İnqilabı Qvardiyasını təcrid etməyə çağırırıq. Biz onların imkanlarını məhdudlaşdırmalıyıq" deyə ABŞ Prezidenti administrasiyasından bildirmişlər.

Buna cavab olaraq İran Ali Milli Təhlükəsizlik Şurası ABŞ Silahlı Qüvvələrinin Mərkəz Komandanlığını (CENTCOM) terrorçu təşkilatlar siyahısına daxil etmişdir. İran hökuməti həmçinin Yaxın Şərqdə ABŞ ordusu ilə əlaqəsi olan bütün təşkilatları terrorçu kimi tanımaq qərarına gəlmişdir. Tehranın fikrincə, ABŞ qoşunları İran və digər ölkələrin təhlükəsizliyinə təhdid yaradır.

Həmçinin İran hökuməti 1988-ci il iyulun 3-də İran-İraq müharibəsi zamanı İran körfəzi səmasında "İran Air" şirkətinə məxsus təyyarənin qəzaya uğramasına görə məsuliyyəti ABŞ-ın üzərinə qoymuşdur. 290 sərnişin daşıyan layner ABŞ hərbi dəniz qüvvələrinin "USS Vincens" gəmisindən atılan raketlə vurulmuşdur. Amerikalı dənizçilər layneri səhvən İranın hücum edən hərbi təyyarəsi hesab etmişdilər.

CENTCOM Yaxın Şərq, Şərqi Afrika və Mərkəzi Asiyada, o cümlədən İran, İraq, Əfqanıstan və Misirdə əməliyyatlara görə cavabdehlik daşıyır.

## Qazaxıstanda növbədənkənar prezident seçkiləri keçiriləcək

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev növbədənkənar dövlət başçısı seçkilərini 2019-cu il iyunun 9-na təyin etmişdir. Bu barədə yerli KİV xəbər verir.



Tokayev bununla bağlı xalqa müraciətində demişdir: "Hər birinizə müraciət edirəm. Ölkə Konstitusiyasına uyğun olaraq, 2019-cu il iyunun 9-da Qazaxıstan Prezidentinin növbədənkənar seçkilərinin keçirilməsi haqqında qərar qəbul etmişəm. Mən Elbası (Nursultan Nazarbayev - *red.*), hər iki palatanın spikerləri və Baş nazirlə məsləhətləşmişəm, qərarı Konstitusiya Şurası ilə razılaşdırmışam, partiyaların liderləri ilə görüşmüşəm".

Ötən ayın 19-da Nursultan Nazarbayev Qazaxıstan Prezidenti vəzifəsini tərk etmək barədə qərarını elan etmişdir. Konstitusiyaya görə, Prezidentin səlahiyyətləri qalan müddətdə parlamentin sədri Kasım-Jomart Tokayevə keçmişdir. Martın 20-də Tokayev and içdikdən sonra dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlamışdır.

Qazaxıstanda sonuncu prezident seçkiləri 2015-ci il aprelin 26-da keçirilmişdir. Konstitusiyaya əsasən, dövlət başçısı beş il müddətinə seçilir.

# Niyə kitab oxumuruq?

## Günahkar kimdir: kitabı satılmayan yazıçı, çap xərcini çıxara bilməyən nəşriyyat, yoxsa tənbəlləşən oxucu?

*Əvvəli 5-ci səh.*

Şəmil Sadiqin fikrincə, yaradıcı baxımdan əsas problem tərcümə zamanı yaranır: "Tərcümələrin keyfiyyətsizliyi oxucuları əsəbiləşdirir, lakin burada nəşriyyatın günahı yoxdur. Yaxşı tərcümə üçün tərcüməçiyə bir səhifəyə azı 10 manat verməlisən. Bunu edə bilmirsən, çünki 500 tirajlı bir kitab 300 səhifə olarsa, bu, 3000 manat deməkdir. 2 manatdan da sadəcə mətbəə xərci hesablasan, 1000 manat qonorar versən, bu rəqəm 6000 manat edir. Mən hələ redaktor, dizayner, korrektə, vergi və digər xərcləri demirəm. 6000 manata başa gələn bir kitabın maya dəyəri 12 manat olur, nəşriyyat da bunu bazara 15 manata çıxarsa, gərəkdir ki, oxucuya da 20 manata satıla. Amma bu formatda kitablar bizdə 10 manatdan baha deyil. Çünki biriki manatlıq diletant və orijinaldan olmayan tərcümələrə üstünlük verilir ki, bu da tərcümənin faciəsidir".




Naşir hesab edir ki, Azərbaycanda kitab çapı sahəsində sağlam biznes mühitinin yaradılması üçün dövlətin dəstəyinə böyük ehtiyac var. Bu yöndə bəzi təklifləri də var. Həmin təkliflər aşağıdakılardır: *kitabı, ümumiyyətlə, kağızı vergidən azad etmək; rayon və qəsəbələrdə heç olmasa beş illik icarə haqqından azad mağazalarla nəşriyyatları təmin etmək; televiziya, radio, metro və digər yerlərdə çox cüzi məbləğdə reklam yerləri ayrılsın; ədəbiyyatımızın xaricdə nəşri üçün naşirlərə və müəlliflərə maliyyə dəstəyi göstərilsin; müasir yazarların əsərlərinin dövlət məktəb kitabxanaları üçün alışı təşkil edilsin; insanların kütləvi olduğu məkanlarda kitab satışına şərait yaradılsın; obyektiv müsabiqələr keçirilsin; xarici ədəbiyyatın nəşri üçün obyektiv tenderler təşkil olunsun; ildə iki dəfə böyük kitab yarmarkaları keçirilsin; vacib və önəmli bədii əsərlərin filmlərinin çəkilişi və dünyaca məşhur yazarların Azərbaycana gəlişi təmin olunsun.*

### Siqaret, yoxsa kitab?

"Mütərcim" nəşriyyatının icraçı direktoru, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru **Əliş Ağamirzəyev** cəmiyyətin mütaliə qabiliyyətinin aşağı düşməsi fikrinə fərqli yanaşır. Deyir ki, müasir gəncliyin az mütaliə etməsindən şikayətlənmək dəb halını alıb. Halbuki bu vəziyyət hərtərəfli, elmi metodlarla tam araşdırılmayıb: "Əksər ölkələrdə, xüsusilə Avropa dövlətlərində ayrıca institutlar əhalinin mütaliə səviyyəsini, kitaba tələbatını, mövcud problem və perspektivləri sistemli, elmi şəkildə araşdırır, öz tədqiqatlarının nəticələrini, tövsiyələrini təqdim edirlər. Biz isə daha çox şəxsi müşahidələrimizdən çıxış edərək fikir yürüdür və əsasən də çap kitabının az mütaliə olunmasından şikayətlənirik. Ancaq kitab elə təkcə ənənəvi formada qəbul etdiyimiz çap kitabı deyil ki... Zaman keçdikcə kitab öz fiziki formasını dəyişir. Amma daş kitabələrdən bugünkü elektron nəşrlərə qədər yol keçmiş kitab öz mahiyyətini heç vaxt dəyişməyib. Məncə, mütaliədən danışarkən elektron nəşrlərdən istifadəni də nəzərə almaq lazımdır. Oxuyan zümrənin sayı hazırda qaneedici olmasa da, hesab edirəm ki, düşündüyümüz qədər faciəli səviyyədə də deyil! Son illərdə kitaba, ədəbiyyata marağın artdığını müşahidə edirik".

Kitaba maraq artsa da, Azərbaycanın kitab bazarında satış hələ ki ürəkaçan deyil. Naşir bunu əhalinin alıcılıq qabiliyyəti ilə bağlamağı düzgün saymır. Onun fikrincə, ölkəmizdə kitabların qiyməti dünyanın başqa yerləri ilə müqayisədə yüksək deyil. Bu vəziyyət daha çox kitab mağazalarının azlığı və mövcud kitab mağazalarının öz işlərində yeni texologiyalardan, yeni satış metodlarından, marketinq üsullarından lazımi səviyyədə yararlanmamaları ilə bağlıdır: "Hərdən deyirlər, kitab almırlar, çünki maddi imkanları yoxdur. Bu fikirlə razı deyiləm. Hər gün sağlamlığa zərərli siqaretə 2-3 manat xərcləyən insanın ayda 5-10 manata bir kitab alması elə də çətin olmaz. Biz insanları mütaliəyə təşviq etməyi bacarmalıyıq. Onlara bu kitabı niyə oxumalı olduğunu izah etməli, mütaliənin zəruriliyini aşılamalıyıq. Ümumiyyətlə, cəmiyyətdə kitaba münasibəti dəyişməliyik. Hazırda bizdə kitaba əksər hallarda universitetə daxil olmaq üçün vasitə kimi baxırlar. Biz insanlara mütaliənin bütün ömür boyu davam edən, sistemli proses olduğunu, mənəvi qida kimi zəruriliyini aşılamalıyıq. Kitab mağazaları, nəşriyyatlar öz məhsullarını, bir növ, oxucunun "ayağına aparmalıdır". Gözləməməlidir ki, hansısa oxucu gəlib kitab alsın. Xarici ölkələrdə kitab mağazaları çoxdandır ənənəvi satışla yanaşı, yeni marketinq üsullarından da istifadə edir".

### "Nəşriyyatlar müəlliflərə lazımi qədər qonorar verə bilmir"

Mütəxəssis deyir ki, hazırda təhsillə bağlı kitablara, tədris vəsaitlərinə, lüğət və ensiklopediyalara tələbatın çox olduğu müşahidə olunur. Bu da təbiidir, xalqımız həmişə təhsilə böyük önəm verib. Valideynlər, elə şagirdlərin özləri də tədrislə bağlı kitabları, ümumi dünyagörüşü inkişaf etdirən ədəbiyyatları, lüğətləri həvəslə alırlar. Bədii əsərlərdən isə xarici ədəbiyyatdan tərcümələrə üstünlük verildiyini görmək olar: "Onu da qeyd edim ki, hazırkı kitablar yaradıcılıq baxımından poliqrafik keyfiyyətdən geri qalmır, mən deyərdim, bəzən hətta onu qabaqlayır. Poliqrafik keyfiyyət həm də texnika ilə, yeni texnoloji nailiyyətlərlə bağlıdır. Yaradıcılıq isə fərdidir, sırf insanın şəxsi nailiyyətləri ilə bağlıdır. Bizim, xalq olaraq, savadlı, yüksək intellektli yaradıcı insanlarımız çoxdur".

Bəs kitabın təbliği və satışı ilə kim məşğul olmalıdır - nəşriyyatlar, yoxsa müəlliflər? Ə.Ağamirzəyevin fikrincə, müəllif öz qonorarını almalı, əsərinin yayım hüquqlarını nəşriyyata verməlidir. O, satışla, təbliğatla məşğul olmamalı, yeni əsərlər haqqında düşünməlidir. Əmtəə kimi kitab nəşriyyatın məhsuludur: "Xarici ölkə nəşriyyatlarının bu istiqamətdə böyük təcrübələri var. Nəşriyyatlar ədəbi dərgilər nəşr edir, rəylər, tənqidi məqalələr dərc edir, müzakirələr, təqdimatlar təşkil edirlər və s. Bunlar ənənəvi üsullardır. Hazırda daha yeni metodlara əl atırlar. Məsələn, hər hansı bir əsərin onlayn müzakirəsini təşkil edirlər və ya oxucuların suallarını cavablandırırlar. Əsərin ən maraqlı məqamlarını bəzən səhnələşdirib, kiçik videoroliklər şəklində təqdim edirlər. Yeni kitabların reklamı, təbliği üçün kifayət qədər əmək sərf edirlər. Onların bu təcrübəsindən yararlanmaq lazımdır. O ki qaldı kitabın tirajının müəyyənləşməsinə, bu, bir sıra amillərlə bağlıdır: əhalinin sayı, mütaliə, yəni savad səviyyəsi, alıcılıq qabiliyyəti, kitabın mövzusu, kitab ticarəti şəbəkəsinin vəziyyəti və s. Əhalisi bizim ölkənin əhalisi qədər olan dövlətlərdə kütləvi nəşrlərin tirajı təxminən 5-10 min arası dəyişir. Azərbaycanda isə bu rəqəm 500-1000 nüsxə arası olur. Bizdə mövcud vəziyyət, fikrimcə, kitabı lazımi qədər təbliğ edə bilməməyimizlə və kitab mağazalarının sayının az olması ilə bağlıdır. Kitabların tirajı aşağı və kitab satışı zəif olduğu üçün, təbii ki, nəşriyyatların gəliri də az olur. Ona görə də müəlliflərə lazımi qədər qonorar verə bilmirlər. Kitab nəşrində 10-15 il bundan əvvəlki vəziyyətlə müqayisədə nəzərəçarpacaq irəliləyiş var. Ancaq kitab nəşrinin gəlirli biznesə çevrilməsindən danışmaq, məncə, hələ tezdir".

Hər bir halda nəşriyyat işi yaradıcılıq işi olmaqla bərabər, həm də biznesdir. Biznes maarifçilik missiyasını həyata keçirmək üçün vasitə olmalıdır. Yəni uğurlu biznes olmalıdır ki, bu missiyanı yerinə yetirə, əhaliyə xidmət edə biləsən. Ona görə də kitab nəşrində maarifçilik missiyası və biznes maraqları paralel gözlənilməlidir. Ancaq Azərbaycanda kitab çapı sahəsində sağlam biznes mühitinin yaradılması üçün dövlətin dəstəyinə böyük ehtiyac var: "Dövlətimiz kitab nəşrinə hər zaman öz dəstəyini göstərir. Azərbaycan Respublikası Prezidentinin latın qrafikası ilə təkrar nəşrlərin həyata keçirilməsi və "Dünya ədəbiyyatı kitabxanası" seriyasının nəşri haqqında məlum sərəncamları əsasında çap olunan kitablar, Heydər Əliyev Fondunun nəşrləri, Mədəniyyət Nazirliyinin nəşr etdiyi kitablar və s. buna bariz sübutdur. Mədəniyyət Nazirliyinin "Bərpanəşr" layihəsi əsasında yenidən çap olunan kitablar tariximiz, mədəniyyətimiz üçün çox vacib kitablardır. Mənə elə gəlir ki, dövlət kitab nəşrinin inkişafı istiqamətində nəşriyyatların ayrı-ayrı layihələrini dəstəkləməklə, nəşriyyat fəaliyyəti üçün uzunmüddətli faizsiz və ya aşağı faizli kreditlər verməklə öz dəstəyini davam etdirməlidir".

*Bunlar sadəcə naşirlərin problemə baxış bucaqları idi. Bucaqlar müxtəlif, baxışlar çoxdur. Yazıçılar problemə hansı bucaqdan baxırlar, görəsən? Bu isə artıq başqa yazının mövzusudur...*

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Azərbaycan Prezidentinin tapşırığına əsasən FHN İrana humanitar yardım göndərəcək



İran İslam Respublikasında aramsız yağışlar nəticəsində baş vermiş təbii fəlakətlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Fövqəladə Hallar Nazirliyi (FHN) Azərbaycan hökuməti adından bu ölkəyə humanitar yardım göndərəcək.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, ümumi dəyəri 950 min manat olan humanitar yardımın yola salınması üçün hazırda müvafiq hazırlıq işləri görülür.

Qeyd edək ki, baş vermiş təbii fəlakət insan itkisi və dağıntılara səbəb olub, infrastruktura ciddi ziyan dəyib.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti
## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

LOT 1. LDU-nun Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118 ünvanında digər tikililərin inşası işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**LOT üzrə 350 (üç yüz əlli) manat**
**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu**
**Telefon: (025) 255 14 80**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50, faks: (025) 255-27-86; www.lsu.edu.az:office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri:*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 may 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 23 may 2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 24 may 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bəzi qərb rayonlarında qısamüddətli yağış yağacaq

Ölkə ərazisində aprelin 10-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər və axşam bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-10°, gündüz 13-17° isti, Bakıda gecə 8-10°, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi qərb rayonlarında lokal xarakterli qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 19-24° isti, dağlarda gecə 2-7°, gündüz 9-14° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə lokal xarakterli qısamüddətli yağış yağacağı gözlənilir. Şimşək çaxacağı ehtimalı var. Zəif şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 18-23° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə lokal xarakterli qısamüddətli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman, çiskin olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 18-23° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 17-22° isti, dağlarda gecə 0-5°, gündüz 7-12° isti olacağı ehtimalı var.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 19-24° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə lokal xarakterli qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-10°, gündüz 15-20° isti, dağlarda gecə 6-8°, gündüz 11-16° isti olacağı ehtimal edilir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Acarlı, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq aprelin 10-da Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Ralf Bossard keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və YSPQ-nin nümayəndəsi polkovnik Yuri Dudçenko aparacaqlar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov və şöbənin əməkdaşları: Eldar Əsgərov, Elmir Vəliyev, Tamerlan Şeyxzamanov, Ramin Cəlilov, Lalə Baloğlanova, Elnur Nuriyev, Kamalə Paşayeva, Tural Tağıyev, Elçin İsmayıl, Mahir Süleymanlı və Mətanət Qənbərova şöbənin müdir müavini Səyyad Kərimova əzizi

**ELVAR BAYRAM OĞLU SADIXOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iş yoldaşları Qüdrət Seydəliyevə anası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Fikrət Əzizov, Müqəddəs Sultanov, Mövsüm Qurbanov, Raqif Abbasov və Rəşad Əzizov Zəfər Murtuzova bacısı

**NƏZAKƏT MUSTAFAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi

**ƏLİ PAŞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9109
Sifariş 1175
Qiyməti 40 qəpik